# İÇİNDƏKİLƏR


- Universitet xəbərləri 3
- *Azərbaycan Respublikası Təhsil Şurasının sədri, professor Əjdər Ağayevlə müsahibə.* (Afaq Əbdülqızı) 18
- *Namiq Musalı.* Oqtay Əfəndiyev və tariximiz. 24
- Təhsil 28
- NDU- xəbərləri 29
- *Ramiz Əliyev.* Özəl səhiyyədə menecment 30
- Mədəniyyət 34
- *Gamidova L.M.* Focusing on Key Aspects of English Language Teaching 36
- Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair dövlət proqrami 38
- Dünya 40
- *Pərvaz Babayeva.* Azərbaycan xalq yaradıcılığı haqqında 42
- *Neli Esipova and Anita Pugliese.* Gallup Poll: Desire to Leave FSU Ranges Widely Across Contries 48
- İslam dünyada 50
- *Orxan Kamal.* Şokolad 52
- *Jamala I. Mammadova.* Superstitions in Azerbaijan as a Sign of the Nation's Historical Remnants 56
- Sosial 59
- *Məmməd İsmayıl.* Şeirlər 60
- Təbabət 63
- Mozaika 65
- İdman 68



Xəzər Xəbər

**1995-ci ilin yanvarından çıxır**

Təsisçi:
**XƏZƏR UNİVERSİTƏSİ**

Baş redaktor:
**Hamlet İSAXANLI**

Baş redaktor müavini:
**Əlirza BALAYEV**

Redaksiya heyəti:
**Camal MUSTAFAYEV**
**Cəmil HƏSƏNLİ**
**Nizami CƏFƏROV**
**Knyaz ASLAN**
**Əfqan ABDULLAYEV**

Rəssam:
**Mir Rafiq ƏBDÜLRƏHİMOV**

Kompüter tərtibatçısı:
**Nigar AYDƏMİROVA**

Foto:
**MEDİA MƏRKƏZİ**

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*
*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Sifariş: 190*
*Tiraj: 3000*

# UNİVERSİTET XƏBƏRLƏRİ

## “XƏZƏR”İN ƏMƏKDAŞI TEMPUS SEMİNARINDA

Xəzər Universiteti Keyfiyyətin təminatı mərkəzinin rəhbəri Lyudmila Sotova martın 13-15-də Tempus layihəsi olan “Tədris proqramlarının keyfiyyət təminatının sənədləşdirilməsi” çərçivəsində Tacikistan Texniki Universitetində (Düşənbə) keçirilmiş “Tədris proqramlarının keyfiyyət təminatı üçün məlumatların və rəqəmlərin müəyyənləşdirilməsi, yığılması, işlənib hazırlanması və təqdim edilməsinin metodologiyası və prosedurları” mövzusunda seminarda iştirak etmişdir

Seminarın məqsədi DoQuP modelinin təqdimatı və partnyor ölkələrin universitetlərinin, təhsil nazirliklərinin və keyfiyyətin təminatı agentliklərinin DoQuP sənədləşdirilməsinin tədris proqramlarının keyfiyyət təminatı üçün faydalı olub-olmaması haqqında fikirlərini öyrənmək idi.

Tədbirin sonunda iştirakçılara sertifikat təqdim olunmuşdur.

## HÜQUQ TƏDRİS MƏRKƏZİNDƏ TƏLİM KURSLARI

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi, Azərbaycan Hüquqşünasları Konfederasiyasının təşkilatçılığı ilə həyata keçirilən “Azərbaycan Hüquqları Konsorsiumu” layihəsi çərçivəsində Xəzər Universitetində yaradılmış Hüquq Tədris Mərkəzində martın 16-da ilk təlim kurslarına start verilib. Təlimlər “İnsan hüquqları” və “ Vəkillik imtahanlarına hazırlıq“ üzrə aparılır.

İlk təlim kursunda tələbə hüquqşünaslar üçün Xəzər Universitetinin müəllimi Aynur Cəfərova “Əsas insan hüquqları və azadlıqları” və layihənin hüqüqşünası, Vəkillər Kollegiyasının üzvü Sima Yaqubova isə məzun hüquqşünaslar üçün “Vəkillərin professional etikası” mövzusunda mühazirə oxumuşlar. Təlim kursları çərçivəsində 25 tələbə hüquqşünas 3 ay müddətində “İnsan hüquqları”, 9 məzun hüquqşünas isə “Vəkillik imtahanına hazırlıq” təlim kursunda iştirak edəcək.

***

Martın 30-da Hüquq Tədris Mərkəzində növbəti təlimlər keçirilmişdir. “İnsan hüquqları” üzrə keçirilən təlimdə Bakı Dövlət Universiteti, Milli Aviasiya Akademiyası və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasından olan hüquq fakültəsinin tələbələri iştirak etmişdir. “BMT-nin insan hüquqları sahəsində fəaliyyəti: Nizamnamə mexanizmləri“ mövzusunda keçirilmiş təlimin eksperti “Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının” sədri Sahib Məmmədov idi.

İkinci təlim isə “Vəkillik imtahanlarına hazırlıq” üzrə aparılmışdır. “Vəkillik vərdişləri” mövzusunda keçirilmiş təlimin eksperti Vəkillər Kollegiyasının üzvü və Xəzər Universitetinin Hüquq departamentinin müəllimi Akif Əlizadə idi.

## “SCORE“ LAYİHƏSİNİN TƏQDİMATI

Aprelin 3-də Xəzər Universiteti Tələbə Məclisinin təşkilatçılığı ilə universitetin İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün Kreativ Gənclər Birliyinin “Score“ layihəsinin təqdimatı keçirildi .Tədbirdə Birliyin sədri Tələt Qurbanbəyov tələbələrə layihənin məqsədi haqqında məlumat verdi və onların suallarını cavablandırdı .

Khazar review

It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Jamil HASANLI
Nizami JAFAROV
Knyaz ASLAN
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Nigar AYDEMİROVA

Photo:
MEDIA CENTRE

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93
E-mail: redaksiya@khazar-view.org

Certificate: 376
Index: 67178
Order: 190
Copies: 3000

## KARYERADA NATİQLİYİN ƏHƏMİYYƏTİ

Martın 30-da Xəzər Universiteti Karyera Mərkəzi tələbələr üçün natiqlik haqda təlim keçirdi. Təlimçi *"Sheraton Hotel & Resort"*-un treninq meneceri Talıb Bayramov idi. Təlimdə tələbələrə nitqə pozitiv yanaşma, bu zaman ortaya çıxan problemlər, problemlərin həlli yolları, çıxışa hazırlığın ilkin mərhələsi, fikrin düzgün və aydın ifadə edilməsi, diqqətin cəmləşdirilməsi, auditoriyanın ələ alınması, çıxışın daha düzgün və mənalı qurulması, ətrafdakıların inandırılması, karyera qurmaq üçün vacib olan incəliklər və digər məsələlər haqqında məlumat verildi, tələbələri maraqlandıran suallar ətraflı cavablandırıldı.

## UNİVERSİTETİN HƏKİMİ İLƏ GÖRÜŞ

Aprelin 1-də Xəzər Universitetinin Təhsil fakültəsində tarix-coğrafiya ixtisası üzrə təhsil alan tələbələrin universitetin həkimi Leyla Cəmilzadə ilə görüşü oldu. Görüşdə sağlam həyat və gözəllik, gigiyenik təmizlik və digər mövzularda geniş danışıldı.

L. Cəmilzadə tələbələrə sağlamlıqları üçün lazım olan bir çox məsləhətlər verdi və onların suallarını cavablandırdı

## AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ İLƏ BAĞLI ANIM TƏDBİRİ

Aprelin 2-də Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun (MQF) təşkilatçılığı ilə Xəzər Universitetində 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilmişdir. Əvvəlcə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, MQF-nin prezidenti Rauf Zeyni və başqaları Azərbaycan xalqına qarşı yüz illər boyu davam edən soyqırımı və təcavüz siyasətinin məqsədi, mahiyyəti və tarixi kökləri barədə ətraflı məlumat vermişlər.

Bildirmişlər ki, 1918-ci il martın 30-dan aprelin 3-dək Bakı şəhərini və Bakı quberniyasının müxtəlif bölgələrini, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər əraziləri azərbaycanlılardan təmizləmək məqsədi ilə erməni daşnak silahlı dəstələri havadarlarının köməyi ilə mənfur planlarını həyata keçirmişlər. Soyqırımı nəticəsində 50 min azərbaycanlı qətlə yetirilmiş, 10 minlərlə insan tarixi torpaqlarından qovulmuşdur.

Estoniya-Azərbaycan Tarixi Əlaqələrinin Araşdırılması Mərkəzinin sədri, tədqiqatçı Cəfər Məmmədov tərcümə etdiyi "Xatirələr" kitabını təqdim etmiş, eyni zamanda, apardığı araşdırmalar zamanı əldə etdiyi maraqlı faktları diqqətə çatdırmışdır. Qeyd etmişdir ki, uzun müddət Estoniya arxivlərində araşdırma apararaq, 1914-1921-ci illərdə Bakıda yaşayan Henri Tomsonun "Xatirələr" kitabını tapmış, həmin kitabı rus və ingilis dillərinə tərcümə etmişdir.

Tədbirdə, həmçinin azərbaycanlıların deportasiyası və soyqırımına aid fotosərgi də nümayiş olunmuşdur.

İCTİMAİ KANAL

## "ELM ÜÇBUCAĞI" PROQRAMININ NÖVBƏTİ VERİLİŞİ

Aprelin 2-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" adlı proqramının növbəti verilişi oldu. "Mirzə Fətəli Axundov" mövzusu üzrə mühazirə dinlənildi.

## VAXT İDARƏÇİLİYİ MÖVZUSUNDA TƏLİM

Aprelin 3-də Xəzər Universitetinin Karyera mərkəzi İqtisadiyyat və menecment fakültəsinin korpusunda tələbələr üçün "Vaxt idarəçiliyi" (Time Management) mövzusunda təlim keçirdi. Təlimçi "Oratorica" Təlim Mərkəzinin icraçı direktoru Tofiq Sadıxov tələbələrə karyerada uğur qazanmaq üçün təşkiledici element olan vaxtın idarə olunması, ondan səmərəli və məntiqi şəkildə istifadə etməyin yollarını izah etdi və sualları cavablandırdı.

## XƏZƏR UNİVERSİTETİNDƏ ”WEBTƏHSİL” KONFRANSI

Martın 13-də Xəzər Universitetində “webtəhsil” konfransı keçirilib. Konfrans Microsoft Azərbaycan, IREX Azərbaycan, Təhsil Nazirliyinin “Elekton Təhsil” Respublika müsabiqəsi, Mədəd Azərbaycan, Azərbaycan İnternet Forumunun dəstəyi ilə “Youth Network of Azerbaijan” Gənclər Təşkilatı tərəfindən keçirilib. Konfransın keçirilməsində məqsəd Azərbaycan təhsil sistemində internet resurslarından və internetin yaratdığı digər imkanlardan istifadə olunmasına təkan vermək, yeni texnologiyların təhsildə tətbiq olunması məsələsini gündəmə gətirmək idi.




Konfrans Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəylinin çıxışı ilə başlanıb. Ə. Əmirbəyli Xəzər Universitetinin təhsil sistemində yeni texnologiyaları necə tətbiq etdiklərinə aydınlıq gətirib. Daha sonra layihənin baş sponsoru Azedunet şirkətinin marketinq direktoru Elmira Abasova çıxış edərək, şirkətin bu sahədə həyata keçirdiyi layihələrdən danışıb və bu tipli layihələrə dəstək olmağa hər zaman hazır olduqlarını bildirib. Son olaraq isə layihə koordinatoru və YNA təsisçisi Elgün Yusifbəyli çıxış edərək, konfransın əsas məqsədlərini vurğulayıb.

Açılış çıxışlarından sonra ilk panel başlanıb. Paneldə Azərbaycan internet məkanında ana dilimizdə olan təhsil resurslarının bugünkü vəziyyəti, həmin resursların artırılması istiqamətində görüləcək işlər haqqında müzakirələr aparılıb. Panelin qonaqları Mürsəl Əliyev (www.telebe.az resursunun təsisçisi), Rəşad Əliyev (*www.ilkaddimlar.com* resursunun təsisçisi), Elgüc Yusifbəyli(*www.technet.az* resursunn təsisçisi), Elvin Hacılı (*www.cavablar.net* və *www.xaricidil.net* resurslarının təsisçisi ), Azər Cabbarov (www.oxu.tv resursunun təsisçisi) olub. Gənclərin Səsi Radiosu layihəsinin rəhbəri Azər Nəzərov panelə moderatorluq edib.

İkinci paneldə təhsil sistemimizə yeni texnologiyaların inteqrasiya olunması, inteqrasiya mərhələsində yaranan problemlər, onların həlli yolları haqqında diskussiya aparılıb. Paneldə Osman Gündüz (Azərbaycan İnternet Forumunun rəhbəri), Vüsal Xanlarov (Mədəd Azərbaycan təşkilatının rəhbəri), Ələsgər Məmmədli (IREX Azərbaycan təşkilatının hüquqşünası), Ayaz Abuşov (Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəis müavini), Emin Axundov (Microsoft Azərbaycan şirkətin təhsil proqramı üzrə koordinatoru), Etibar Umudov (RİTN İnformasiya cəmiyyətinin inkişafı şöbəsinin rəhbər müavini) qonaq olub. Paneldə geniş müzakirələr aparılıb. İkinci panelə Sahil IT şirkətinin rəhbəri Vahid Qasımov moderatorluq edib. Hər iki paneldə tələbələrin suallarına aydınlıq gətirilib.

Sonuncu paneldə isə maraqlı hadisə baş verib. Qeyd edək ki, panelin qonaqları rəsmi olaraq elan olunmamışdı. “Webtəhsil” konfransına xas olaraq panelin spikerləri auditoriyada əyləşən iştirakçılardan seçilib. Auditoriyadan seçilən, müxtəlif universitetlərdə, müxtəlif ixitasaslarda təhsil alan beş tələbə səhnəyə dəvət olunaraq, diskussiya aparılıb. Tələbələr öz problemlərini dilə gətiriblər. Gənclərin Səsi Radiosu layihə rəhbəri Azər Nəzərov panelə moderatorluq edib.

Sonuncu panel bitdikdən sonra, Elgün Yusifbəyli çıxış edərək, layihənin sponsorları olan Azedunet, Ultra, Akademi Group şirkətlərinə və çay fasilələrinin sponsoru olan Tudor çaylarına (Cahan TEA MMC) təşəkkür edib. Əvvəlcədən elan olunan Twitter yarışmasının qalibinə hədiyyə təqdim olunub. Qalibə “Zenit Tour” səyahət şirkətindən bir günlük Lənkəran səyahəti paketi hədiyyə edilib. konfrans öz işini uğurla başa vurub.

***Elnur Məmmədli,***
*“Youth Network of Azerbaijan”*
*Gənclər Təşkilatı İctimaiyyətlə əlaqələr*
*departamentinin icraçı direktoru*

## SƏFƏVİ - OSMANLI MÜNAQİŞƏSİNİN BİRGƏ MÜZAKİRƏSİ

Aprelin 5-də Bakı şəhərindəki "Excelsior" otelində ATEV (Azərbaycan - Türkiyə Evi) təşkilatı tərəfindən Uluslararası Şah Xətai - Sultan Səlim Simpoziumu keçirilmişdir. Simpoziumun məqsədi türk tarixinin ən mübahisəli məqamlarından olan Səfəvi - Osmanlı münaqişəsi tarixini Azərbaycan və Türkiyə alimlərinin iştirakı ilə müzakirə etmək və bu barədə ortaq məxrəcə gəlməkdən ibarət olmuşdur.

Simpoziumun birinci iclasında Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Namiq Musalı "Şah İsmayıl Xətainin şəxsiyyəti" mövzusunda məruzə etmişdir. Əməkdaşımız, Şah İsmayılın Azərbaycan və türk dünyası tarixində rolunu, onun dövlət xadimi, sərkərdə, pəhləvan, şair və mənəvi öndər kimi keyfiyyətləri özündə birləşdirən çoxşaxəli şəxsiyyətini ilkin mənbələrin məlumatları əsasında dəyərləndirmişdir. Simpoziumda Xəzər Universitetinin daha bir əməkdaşı – Şərq dilləri departamentinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Zivər Hüseynova da "Azərbaycan ədəbi dilinin və ədəbiyyatının inkişafında Şah İsmayıl Xətainin rolu" mövzusunda məruzə etmişdir.





Simpoziumda qəbul olunmuş yekun bəyanatda deyilir:

"Türk ulusu tarix boyunca möhtəşəm dövlətçilik ənənələrinə və zəngin mədəni irsə malik olmuş, dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Türk tarixində mövcud olmuş çoxsaylı imperiyalar arasında Səfəvi və Osmanlı dövlətləri xüsusi yer tutur. Hər iki dövlətin tarixi türk dünyasının ortaq mirasıdır və bu mirasa sahib çıxmaq biz türklərin ən doğal haqqımız və borcumuzdur. Son zamanlar bəzi qüvvələrin Səfəvi - Osmanlı münasibətlərinin tarixi va sitəsilə türk toplumları arasında düşmənçilik və ədavət yaratmaq cəhdləri boş xəyaldır. Bizim üçün Dəndənəkan döyüşündə, Ankara döyüşündə, Otluqbeli döyüşündə, Çaldıran döyüşündə, Mərci-Dəbik döyüşündə, Ridaniyyə döyüşündə, Əmir Teymur - İldırım Bəyazid savaşında, Uzun Həsən - Mehmed Fateh münaqişəsində, Şah Xətai - Sultan Səlim qarşıdurmasında tərəf anlayışı yoxdur. Çünki hər iki tərəfdən axan qan türkün qanıdır. Müəyyən tarixi şəraitdə müxtəlif hərbi-siyasi və ictimai-iqtisadi səbəblərin diktəsi altında meydana çıxmış bu konfliktlərdən günümüzün reallıqlarında paylaşdırmağa xidmət edən məqsədlər baxımından istifadə olunmasını yolverilməz hesab edirik.

Türk tarix boyunca çox bölündü. Bundan belə bölünməyə ixtiyarımız yoxdur. İndi birlik və bərabərlik zamanıdır. Ulu ərənlərimizin söylədikləri kimi, "bir olaq, iri olaq, diri olaq!" Ortaq tariximizi müştərək və tərəfsiz şəkildə araşdırmalı, görkəmli tarixi şəxsiyyətlərimizə birlikdə sahib çıxmalı və hörmətlə yanaşmalı, əsərlərimizdə, çıxışlarımızda və məruzələrimizdə bir-birimizi incidəcək ifadələrə yer verməməliyik.

Simpoziumun iclasları zamanı tarixi qaynaqların təhlili nəticəsində bəlli oldu ki, Şah Xətai və Sultan Səlim, aralarında müxtəlif fikir ayrılıqları olmasına baxmayaraq, bir sıra bənzər şəxsi xüsusiyyətlərə malik olmuşlar. Bu iki türk hökmdarı beş əsr öncə Çaldıran ovasında bir-birləri ilə savaşsalar da, yüzillər sonra Bakıda çeşidli türk toplumlarının nümayəndələrinin bir araya toplaşıb fikir mübadiləsi aparmaları və elmi ünsiyyət qurmaları üçün körpü rolunu oynadılar. Çünki onların fəaliyyəti doğruları və yanlışları ilə birlikdə bizim ortaq tariximizin ayrılmaz bir parçasıdır".

## TƏLƏBƏLƏRİMİZİN "TƏLƏBƏ BAHARI" ÜMUMRESPUBLİKA FESTİVALINDA QƏLƏBƏSİ

Gənclər və İdman Nazirliyi 2006-cı ildən başlayaraq hər il ali təhsil müəssisələrinin tələbələri arasında "Tələbə baharı" Ümumrespublika tələbə yaradıcılığı festivalı keçirir. Xəzər Universitetinin tələbələri Musiqi və incəsənət departamentinin təşkilatçılığı ilə, son illərdə olduğu kimi, bu il də aprelin 3-4-də Rus dram teatrında keçirilmiş festivalda musiqi və rəqs nominasiyası üzrə iştirak etmişlər. Humanitar və sosial elmlər fakültəsinin tələbəsi Elvin Əliyev və İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Anna Məlikovanın ifasında Verdinin "Traviata" operasından fraqment səslənmiş, universitetimizin qızlardan ibarət rəqs ansamblı Çin xalq rəqsini ifa etmişdir. Tələbələrimizin hər iki nominasiyadakı çıxışı münsiflər heyəti tərəfindən birinci yerə layiq görülmüşdür. Bu, tələbələrimizin son üç ildə festivalda ardıcıl olaraq qazandıqları üçüncü qələbədir.

Bu qələbə münasibətilə tələbələrimizi, Musiqi və incəsənət departamentinin rəhbərliyini və əməkdaşlarını təbrik edir və onlara yeni yaradıcılıq uğurları arzulayırıq. Ətraflı məlumat aşağıdakı linkdə:

## İNTERTEK NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı aprelin 5-də Intertek Azeri Ltd-nin direktor müavini Elxan Hacıyevi qəbul etdi. Onlar şirkət ilə universitet arasında qarşılıqlı əməkdaşlığın bir sıra aspektlərini müzakirə etdilər. Intertek laboratoriyalarında Xəzər Universitetinin tələbələrinin təcrübə keçmək imkanları, "Xəzər"in müəllimlərinin Intertek ilə birlikdə tədqiqatlarda iştirakı, universitet laboratoriyalarının inkişafı sahəsində Intertekin Xəzər Universitetinə dəstəyi, universitet rəhbərliyinin, kimya və neft mühəndisliyi sahələrində çalışan heyətin Interteka gələcək səfəri müzakirə olundu. Görüşdə Xəzər Universitetinin prorektoru professor Məhəmməd Nuriyev iştirak edirdi.

## BRİTANİYA UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIĞIN MÜZAKİRƏSİ

Aprelin 5-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Nottingham və Birmingham universitetləri ilə yaxın əlaqələri olan, Böyük Britaniyada vəkil işləyən Elşad Hüseynovu qəbul etdi. Görüşdə həmin universitetlərlə əməkdaşlıq məsələləri müzakirə olundu. Görüşdə Xəzər Universitetinin prorektoru professor Məhəmməd Nuriyev iştirak edirdi.

## HÜQUQ TƏDRİS MƏRKƏZİNİN RƏSMİ AÇILIŞ MƏRASİMİ

*(əvvəli səh. 10-da)*

Aprelin 6-da Xəzər Universitetində Hüquq Tədris Mərkəzinin rəsmi açılış mərasimi keçirildi. Tədbirdə müxtəlif dövlət orqanları, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatları və digər qurumları təmsil edən nümayəndələr, universitet rəhbərliyi və tələbələr iştirak edirdilər. Açılış nitqi ilə çıxış edən Hüquq Tədris Mərkəzinin rəhbəri Cabir Xəlilov mərkəzin təşkili və fəaliyyəti haqqında məlumat verdi. Daha sonra AHK sədri, millət vəkili Əli Hüseynli layihənin və təşkil olunan kursların peşəkar hüquqşünas və vəkillərin hazırlanması sahəsində əhəmiyyətli olacağını qeyd etdi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Mərkəzin yaradılmasının zəruriliyindən və tələbələrin burada praktiki vərdişlərə yiyələnməsinin əhəmiyyətindən bəhs etdi.

Tədbirdə, həmçinin, USAID Bakı ofisinin Demokratiya və İdarəetmə İdarəsinin direktoru Ronald Qlass (Ronald Glass), AR Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi Səadət Yusifova, AR Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev, Konstitusiya Araşdırmaları Fondunun Prezidenti Əliməmməd Nuriyev, Vətəndaşların Əmək Hüquqları Müdafiə Liqasının sədri Sahib Məmmədov və Vəkillər Kollegiyasının üzvü, Xəzər Universitetinin müəllimi Akif Əlizadə çıxış etdilər. Sonda Ronald Qlass tələbələrlə kursların təşkili barədə söhbət apardı. Tədbir bitdikdən sonra USAID Bakı ofisinin nümayəndəsi Aynur Yusifova monitorinq məqsədi ilə təlimdə iştirak etdi.

## HAMLET İSAXANLININ "IB GƏNCLƏR MƏCLİSİ"NDƏ ÇIXIŞI

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Aprelin 6-da "IB Gənclər Məclisi"nin istəyi ilə Bakıdakı "Kempinski hotel"də 600-ə yaxın gəncin qarşısında "Hisslər" mövzusunda çıxış etdi. Hisslər, duyğular, xəyal dünyası ilə ağıl, idrak və düşüncə dünyasının ahəngdar birliyini nümayiş etdirən nəzəri müddəalardan və öz təcrübəsindən aldığı hadisələrdən söhbət açdı.

Görüşün sonunda H. İsaxanlıya "IB Gənclər Məclisi"nin B 888 saylı vəsiqəsi təqdim edildi.

## BDU-NUN ELMİ ŞURASININ İCLASINDA

Aprelin 9-da Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Xaqan Balayev digər ali təhsil müəssisələrindən gəlmiş qonaqlarla yanaşı Bakı Dövlət Universitetinin Elmi Şurasında Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş iclasda iştirak etmişdir. Elmi Şuraya Xaqan Balayevin "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda məruzəsi təqdim olunmuşdur.

## MAGİSTR DİSSERTASİYASININ MÜDAFİƏSİ

Aprelin 9-da Xəzər Universitetində iqtisad elmləri doktoru İnqilab Əhmədovun sədrliyi və Günay Əsədovanın katibliyi ilə Müdafiə Şurasında türkiyəli tələbə Bayram Yazarın "Təchizatçılarla əlaqələrin idarə edilməsinin şirkətlərin rəqabət gücünə təsiri" mövzusunda magistr işinin müdafiəsi keçirildi. İş iqtisad elmləri üzrə fəlsəfə doktoru İntiqam Bəşirovun elmi rəhbərliyi ilə hazırlanmışdır.

B. Yazar çıxışında mövzunun Azərbaycan şəraitində araşdırılmasının aktuallığını və elmi yeniliyini əsaslandıraraq, öz elmi işi barəsində ətraflı məlumat verdi. Magistrın təqdimatı və suallara dolğun cavab verməsi, qısa vaxt ərzində belə bir araşdırma aparması Müdafiə Şurası tərəfindən yüksək qiymətləndirildi.

## İCTİMAİ TV-NİN "DİN VƏ CƏMİYYƏT" VERİLİŞİNDƏ

Aprelin 12-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Ictimai TV-nın "Din və Cəmiyyət" verilişində iştirak etdi. Verilişdə H. İsaxanlı diskussiya apardı və suallara cavab verdi.

## "XARİZMATİK LİDERLİK" MÖVZUSUNDA TƏLİM



Aprelin 13-də Xəzər Universitetinin Karyera Mərkəzi tələbələr üçün "Xarizmatik liderlik" mövzusunda təlim keçirdi. Təlimçi "Şeraton Bakı" otelinin təlim meneceri Talıb Bayramov idi. Təlimdə tələbələrə xarizma anlayışı, qadın və kişi xarizması, insanların ehtiyaclarının və təşkilatın məqsədinin əsasında liderlik xüsusiyyətinin dayanması, necə lider olmalı, lider olan şəxslərə insanların etibarı və hörməti və s. mövzulardan ətraflı danışıldı. Tələbələri maraqlandıran suallara geniş şəkildə izahat verildi.

# "İŞ GÖRƏN, FƏALİYYƏTDƏ OLAN İNSANLAR İLK NÖVBƏDƏ ÖZLƏRİNİ TƏHLİL ETMƏLİDİRLƏR"

*Azərbaycan Respublikası Təhsil Şurasının sədri, professor Əjdər Ağayevlə müsahibə*



*Əjdər Ağayev 1937-ci ildə Salyan rayonunun Qırmızıkənd kəndində dünyaya göz açıb. 1960-cı ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutunun (indiki ADPU) Tarix-Filologiya fakültəsini bitirib. Uzun müddət orta ümumtəhsil məktəblərində pedaqoji fəaliyyət göstərib, əməkdar müəllimdir. Hazırda Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunda baş elmi işçi və Qafqaz Universitetində kafedra müdiridir. Azərbaycan Respublikası Təhsil Şurasının sədridir. Pedaqoji elmlər doktoru, professordur. Prezident təqaüdçüsü və "Qızıl Qələm" mükafatı laureatıdır. Azərbaycan Yazışılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 600-dən artıq kitab, monoqrafiya, məqalə müəllifidir. Bədii yaradıcılıqla da məşğuldur. Uşaqlar üçün yazdığı 100-dən artıq şerinə musiqilər bəstələnib. Əsərləri dünyanın müxtəlif dillərinə tərcümə olunub. Ailəlidir, üç övladı var.*

**Əjdər müəllim, Sizi xalqımız görkəmli pedaqoq və təhsil təşkilatçısı kimi tanıyır. Təhsil problemləri ilə əlaqədar fikir və mülahizələrinizi, təkliflərinizi müntəzəm olaraq məqalə və müsahibələrinizdə bildirirsiniz. Bu gün biz Sızə həm də cəmiyyətimizin nüfuzlu ağsaqqalı kimi müraciət edirik. Zəngin həyat təcrübəsinə maliksiniz. Sovet cəmiyyətindəki geniş və çoxşaxəli fəaliyyətinizi müstəqil ölkəmizdə böyük uğurla davam etdirirsiniz. Bu dəyişən dünyada nələri müşahidə edirsiniz ? Nələrdən razı qalırsınız, nələrin üzə çıxdığının şahidi olursunuz? Sizi narahat edən məsələlər?**

- Xalq arasında belə deyim var ki, insan zamanının övladıdır. Bu günlərdə bir fikirlə də rastlaşmışam ki, insan özündən şikayət etməlidir, zəmanəsindən yox! Zəmanə - zaman bu gün gedir, sabah gəlir, yəni daim inkişafda, dinamikadadır. Aylar, illər ötdükcə hər günün, hər ayın görülmüş işləri insanların əməllərində, kəşflərində, ixtiralarında qalır. Yaradan tərəfindən qanunauyğunluq olaraq meydanda olan, lakin hələ insanlara bəlli olmayanlar zaman-zaman aşkarlanır. Bu aşkarlanma insanların yaşayışının rahatlanmasına, sürətli inkişafına kömək edir, düşüncəsi üçün lazım olan texniki imkanları artırır və zaman bunu tələb edir. Əgər insan bugünki zamanın doğurduğu informasiya və kommunikasiya texnologiyalarından istifadə edə bilmirsə, burada o özü günahkardır, zaman yox! Zaman keçdikcə yeniliklər gəlir, deməli, insan da zamanın övladı olaraq yeniliklərlə ayaqlaşmalıdır. Əlbəttə, insanın təkcə elm və təhsil cəhətdən hazırlığı aparıcı rol oynamır, çünki o, sosial mühitdədir, insanlar arasındadır . Belə olan halda sosial münasibətlər də zamana uyğun olmalıdır.

Tarixən mövcud olan əxlaqi-mənəvi dəyərlər var ki, zaman keçdikcə onların arasında yeniləşmələr, yeni mədəniyyət formasına uyğun məzmun, hətta sapıntılar da yaranır. Bunları yaradan da insanın özüdür, amma bir sual da meydana çıxır ki, əksər insanlar buna hazırdırmı? Xeyr, hazır deyil! Və buna görə də biz zamanı müzakirə obyektinə çevirərək, ondan narazı olduğumuzu bildiririk. Amma mənə belə gəlir ki, iş görən, fəaliyyətdə olan insanlar ilk növbədə özlərini təhlil etməlidirlər. Məsələn, siz soruşursunuz ki, zaman dəyişdikcə, nələrin üzə çıxdığının şahidi olursunuz? Mən bunları ona görə görməyi bacarıram ki, əlli il bundan qabaqkıları görmüşəm. Bir şeyi üzə çıxarmaq üçün mütləq müqayisə lazımdır. Müqayisə olmayanda, həqiqət üzə çıxmır. Mən əlli il öncəki zamanı və insanları görmüşəm və bugünki insanları da görürəm. Bu gün insanlardan razı qaldığım məqam budur ki, hamı həyatını qurmaq üçün haradasa işləməyə çalışır. Onlar nəyisə öyrənir, zəhmətə qatlaşırlar. Ailə dolandırmaq üçün çox çalışırlar. Lakin əlli il əvvəl belə deyildi, bir vahid dövlət mülkiyyəti var idi ki, o mülkiyyətdən hər kəsə ayda müəyyən qədər verilir, insanlar dövlət tərəfindən iki-üç otaqlı mənzillərlə təmin edilir, işləyib aylıq qazanc əldə edirdilər. O zaman bir növ ətalət vardı. Bu gün ətalət yoxdur, çalışmalar var və iqtisadi münasibətlər tamamilə dəyişib, kapitalist iqtisadi münasibətləridir. Əlli il əvvəl uşaqlara pul verib, onları mağazaya göndərmək pedaqoji baxımdan düzgün sayılmırdı. Bu gün beş yaşlı uşağa pul verirlər ki, mağazadan çörək alsın və alqı-satqını öyrənməklə pulun dəyərini bilsin. Zaman belə tələb edir, yəni zamanın övladı uşaqlıqdan bunları öyrənməlidir. İyirmi beş il əvvəl maşın insanlarda varlılıq səviyyəsi kimi meydana çıxırdı. Bu gün sürət, insana iş görməkdə yardımçı olan vasitə rolunu oynayır.

Razı qaldığım cəhətlərdən biri də budur ki, insanlara sərbəstlik, azadlıq verilir. Əlbəttə ki, mən öz ölkəmizin inkişaf dairəsini nəzərdə tuturam. Ən çox razı qaldığım insanların azadlıq, müstəqillik ruhunda yaşamasıdır. Öz dövlətçiliyimizi, onun inkişafını görür və onu möhkəmləndiririk. İnsanın ən böyük xoşbəxtliklərindən biri azad və müstəqil bir ölkədə doğulması və yaşaması, həm də dünyanın tanıdığı dövlətinin, bayrağının, gerbinin olmasıdır ki, biz bu gün belə bir dövlətin vətəndaşlarıyıq. Ölkə prezidentinin rəhbərliyi ilə quruculuq işləri və inkişaf davam etdirilir ki, bu da ən böyük nemətlərdən biridir.

Narazı qaldığım cəhətlər ondan ibarətdir ki, insanların bir-birinə inamı, etibarı və sədaqəti azalıb. Onlar qazanc yolunu sağlam elmi düşüncə, yüksək peşə bacarığı ilə əldə deyil, ara düzəltmək, kimə görəsə xahiş etməklə və saxta məhsul buraxmaqla tuturlar. Bu gün ən böyuk probleblərdən biri istehsal edilən ərzaqların saxta və keyfiyyətsiz olmasında, satılan suların bulaqlardan deyil, adi krandan doldurularaq satilmasındadır. İnsanların səhhətinin, ekologiyanın təmizliyinin qayğısına qalmırlar. Ümumiyyətlə, insan münasibətlərində hələki müəyyən qrup adamların vəzifəsiylə özünəməxsus eqoizmi meydana çıxır və digərlərini bəyənmir, tanımırlar.

Məhəmməd Peyğəmbərimiz (s) bütün insanları sadəliklə qəbul edər və deyərdi ki, mən də ət yeyən Qüreyş övladıyam. Yadıma Ulu Öndərimiz Heydər Əliyevin bir sözü düşdü, o deyir ki, vəzifə insana hec bir şey vermir, yalnız məsuliyyət imkanı verir. Nüfuz və hörmətə gəldikdə isə, bunlar insanın ağlı və fərasəti, insanlara münasibəti ilə əldə olunur. Ona görə də H.Əliyev vəzifəylə bərabər insanlığı da daşımağa önəm verirdi. Mən o zamanlar Mərkəzi Komitənin plenumlarında, rəsmi iclas və müşavirələrdə iştirak edirdim. Təsəvvür edun ki, Ulu Öndər hamı ilə ilk olaraq özü salamlaşırdı. Dayanıb söhbət edirdi, uşaqlara xüsusi nəvaziş göstərirdi. Lakin birinci katib kimi böyük nüfuzu vardı.

Mən istərdim ki, cəmiyyətdə insanlar arasındakı fərqlər çox olmasın. Vəzifə fərqi bəllidir, amma insanlıq vəzifəsi hamıya aiddir. Nə qədər təhsil sistemində tədris edilsə də, kitablarda yazılsa da, öyüd-nəsihət verilsə də, nümunə aparıcıdır. Arzulayıram ki, yaxşı nümunələr çox olsun, vəzıfəlilərimiz qanunlara hamıdan əvvəl əməl etsinlər. Onda sabaha inam güclü olar. Zamanın gətirdiyi yeniliklər insanların rifahına xidmət etməlidir. İstəyirəm ki, çoxlarının qısqanclıqla yanaşdığı Azərbaycan dövləti əhali ilə birlikdə öz inkişafına şərait yaradaraq, hamının rəyi və sevgisiylə yüksəlsin.

**- Xalq həmişə düzlüyə meylli olur – həqiqət onun yaşamaq meyarına, həyat kredosuna çevrilir. Xalqın bir millət kimi formalaşmasında düz sözə ehtiyac duyulur. Həmin düz sözün funksiyasını nə ilə ifadə edərdiniz?**

- Siz çox doğru deyirsiniz, düz sözü görülən işlərin həqiqi mənada, real olaraq təqdimatında və sözlə əməlin birliyində görürəm. Əgər bizim dediyimiz söz, elmdəki nəzəriyyə praktikada öz həllini tapmırsa, insanlar tərəfindən reallıqda görünmürsə, orada düzlüyə inam olmur. Əksinə, bu, antipatiya yaradır. İlahi qayda var: İnsanın qəlbi, ürəyi düz olduqda, zehni, beyni həqiqət üzərində düşündükdə, dedikləri təsir edir. Reallıq varsa, söz inandırır.



**- Siz cəmiyyətdə düzlük, haqq-ədalət carçısı kimi tanınırsınız. Sizi sevənlər, sizə hörmət bəsləyənlər də var, təbii ki, sizi qısqananlar və fəaliyyətinizə birmənalı yanaşmayanlar da var. Bu mənada yəqin ki, narahatlıq yaşadığınız vaxtlar da olub...**

-Çox haqlı, həyati, real baxışdı bu baxışınız, çox doğru deyirsiniz. Mənim həqiqətpərəstliyim ilk növbədə ailəmdən gəlir – atamla anam dindar, İslam dini dəyərlərinin daşıyıcısı olublar. Mən özüm də sadəlövh olmuşam və baş verən çox məsələlərdən xəbərim olmayıb. Allahın nəzərində olduğumdanmı, onun məni çox sevdiyindənmi, bilmirəm, işlərim həmişə avand olub. Problemlə qarşılaşmamışam və kimdənsə nəsə xahiş etməyə ehtiyac duymamışam. Ümumiyyətlə, mənim şəxsiyyətimdə kiminsə qarşısında dayanaraq, nə isə xahiş etmək formalaşmayıb. Həmişə təriflənmişəm, sevilmişəm, Əməkdar müəllim adını veriblər, təhsil sahəsində olan xidmətlərimə görə Prezident təqaüdü almışam - bunlar üçün heç kimdən heç nə xahiş etməmişəm. Görən gözlər, yaxşı insanlar var ki, qiymətləndiriblər. İnsanların qəlbinə belə hissləri salan Allahdır! Çünki özümdən asılı olmadan ömür boyu duaçı olmuşam. Buna görə də yolum da, işlərim də avand olur. Həm də aza qane olmuşam. Nizami Gəncəvi deyir ki, "Qənaət ki vardır, bəsimdir, yetər."

Nizaminin bu sözləri mənim üçün ailəmdə bir deviz olub. Heç zaman təmtəraq arzusunda olmamışam. İş imkanlarım elə olub ki, başqa cür də edə bilərdim. Yaxın illərə qədər təmənnalı münasibətlər haqqında anlayışım olmayıb. Baş redaktor olarkən məni yüksək dairələrdən yoxlayıblar. Məqalə çap etdirmək üçün pul təklif ediblər, mən ağlımla deyil, xarakterimlə bunu qəbul etməmişəm. Ayıb deyilmi, mən şəxsiyyətimi kiminsə puluna satım?! Neçə illər

sonra bilmişəm ki, bu məni yoxlamaq üçünmüş. Mən nə bəxşiş vermişəm, nə də almışam. Ona görə də, bir çoxlarının xoşuna gəlmirəm.

Mən iclaslarda kimisə yalandan şişirdəndə, tərifləyəndə cıxış edib sual verirəm ki, siz ki bu adamı belə yalançı təriflərlə bəzəyirsiniz, bəs layiq olan haqqında nə deyəcəksiniz?! Sahəm elmi işlərlə bağlıdır, bəzən görürəm ki, bir dissertasiyanın üstünə düşürlər ki, zəifdir, yaramır. Özü də faktsız, filansız... Qalxıb sual verirəm ki, siz oxumusunuz bu işi? Burada filan yeniliklər var və s. Tanımadığım, bilmədiyim adamların elmi işlərini keçirmişəm.



Kiminsə xoşuna gəlməməkdən narazı deyiləm, amma insanlar mənim fikrimə inanır. Yüksək dairələr də, mətbuat da gözəl bilir ki, mənim narazı qaldığım, tənqid etdiyim problemlərdə heç bir qərəzim, iddiam yoxdur. Əlbəttə, söhbət təhsil problemlərindən gedir, mən nöqsanları deyirəm ki, vəziyyət saflaşsın, yaxşılaşsın, mütəxəssis olmayan adamlar təhsilə müdaxilə etməsin. Məsələn, I sinfin Riyaziyyat dərsliyinin müəllifi Politexnik institutunu bitirən mühəndisdir. Bu, dəhşətli faciədir. I sinifdə dərs deməyən, pedaqoji təhsili olmayan, tədris haqqında məlumatsız, dərsliyə verilən prinsipləri bilməyən, ixtisasca mühəndis olan bir adama dərslik yazmaq tapşırarlar?! Ona görə də, bu gün ibtidai sinif dərslikləri uşaqların təhsilində maneəyə çevrilib. İdeoloji, mənəvi, metodik istiqaməti bilməyən, elmin özünün fundamenti kimi haradan başlamaq lazım olduğunu bilməyən adamlar haqqında mən niyə susub münasibətimi bildirməməliyəm?! Niyə deməməliyəm ki, bu dərsliyin müəllifi bu işə yaramır? Axı, mən ədaləti poza bilmərəm!

Mən heç bir qrupa daxil deyiləm, amalım, əqidəm, fəaliyyətim yalnız azərbaycançılıq, dövlətçilik, müstəqilliyimizin inkişafı və Prezidentimizin quruculuq işlərinə dəstək verməkdir. Heç bir digər mənafe, məqsəd güdmürəm. Mən düz yoldayam, adam var ki, alimdir, amma şəxsiyyəti ilə elmi düz gəlmir.

**- Əjdər müəllım, şəxsiyyət demişkən, bir sual da maraq doğurur: Rəsul Həmzətov yazırdı ki, şəxsiyyəti ata-anası, ailəsi, sonra aulu, vətəni qəbul etməlidir ki, dünya da qəbul etsin. Əks-təqdirdə, nəyəsə nail olmaq çətindir, şəxsiyyət olmaq isə mümkün deyil...**

- Doğrudur, insanı şəxsiyyət kimi hörmətə mindirən məhz ailədir. Rəsul Həmzətov “Mənin Dağıstanım” kitabında belə məsələlərə geniş yer verib. Şeyx Şamil müstəqil olmaq üçün 25 il Rusiyaya qarşı mübarizə aparıb. Onun adına bütün Şərqdə, İslam dünyasında böyük hörmət vardı. Hətta ruslar belə ona hörmətlə yanaşırdılar... Ondan soruşurlar ki, sənin qeyri-adiliyin nədədir ki, hamı səni böyük qəbul edir? Cavab verir ki, mənim qeyri-adiliyim yoxdur, mən hamı kimi sadə insanam. Məni ilk növbədə həyat yoldaşım şəxsiyyət saydı. Ehtiram göstərdi, evə gələndə qarşıladı, qayğı göstərdi. Övladlarım da bunu görüb həm ata, həm də şəxsiyyət kimi ehtiram göstərdilər. Qonşular da bunu görüb hörmət bəslədilər, kənd də, yavaş-yavaş başqa kəndlər də mənə təməli ailəmdən qoyulan hörmətli münasibəti bəsləməyə başladılar. Siz haqlı olaraq dediniz ki, bu mərhələlərlə gedərək, insanı böyük şəxsiyyət səviyyəsinə çatdırmaq mümkündür.

Lakin bu gün ailələrin tərkibi, münasibətləri dəyişib. Mən rastlaşmışam ki, qadın ərinə deyib ki, ikimiz də ali təhsilliyik, hər ikimiz işləyirik, niyə sən ailədə birinci olmalısan, mən yox?! Burda hansı münasibətdən söhbət gedə bilər, yaxud uşaqlar buradan necə nümunə götürə bilərlər?! Normal ailə qanunlarında təbii olaraq belə bir cəhət var ki, ailənin birinci şəxsi atadır. Onun dostu, yardımçısı, köməkçisi, evin təsərrüfatının təşkilatçısı anadır. Bu münasibətlər, bu təbii səviyyələr gözlənilməlidir.

Amma bu gün şəxsiyyətə münasibətdə müəyyən dəyişikliklər var. Bizim bayaq dediyimiz məişət səviyyəsindən yüksələn şəxsiyyətdir. Amma belə də olur ki, şəxsiyyət ailədə həyat yoldaşı üçün normal deyil, lakim cəmiyyət üçün çox faydalı insandır.

Cəmiyyətin tələb etdiyi əxlaq normalarına riayət edən, mühüm hadisələrə müdrik yanaşması ilə müsbət nəticə alan, cəmiyyətə gərəkliliyi ilə seçilən, ziyansız olan şəxlər şəxsiyyətdir. Əlbəttə ki, şəxsiyyətlər də müxtəlifdir. Şəxsiyyətin də bir elmi əsası var. Alimlər tədqiq ediblər ki, şəxsiyyətin formalaşmasında üç amil əsasdır: I. Genetik amil, II. Müvafiq mühit, III. Müvafiq mühitdə məqsədyönlü tərbiyə olmalıdır – onda insan şəxsiyyət kimi yetişə bilər.

Bəzən tərbiyə və mühit olur və gendəki naqislik qapanır. Mühit dəyişən kimi bir də görürsən ki, sənin otuz il tanıdığln adam tamam başqa bir adama çevrildi. Çünki mühit onu dəyişdirir.

**- Belə bir deyim var ki, bir millətin məhvi üçün onun həkiminin və müəlliminin savadsız olması kifayətdir. Belə hallara biz də rast gəlirik. Bu haqda nə deyə bilərsiniz?**

- Bu fikrin başqa forması da var ki, bir xalqın səviyyəsini endirmək və inkişafının qarşısını almaq istəyirsənsə, müəllim və həkimlərini savadsız elə,

onları çalıb-oynamaqla, alverlə məşğul et. Mən bu sözə haqq verirəm. Hələ qədim filosofların da sözü var ki, bir xalqı inkişaf etdirmək üçün onun güclü müəllimləri və güclü məktəbi olmalıdır. Sağlamlığı üçün isə güclü loğmanları olmalıdır. İnsanın sağlamlığı və ruhu cəhətdən keşiyində dayanan bu iki amil əsasdır.

İndiki Almaniya XIX əsrin ortalarında hersoqluqlardan ibarət idi və başıpozuq bir vəziyyət yaranmışdı. Ölkədə qanunsuzluq, təmənnalılıq, intizamsızlıq hökm sürürdü. Böyük diplomat və dövlət xadimi olan Bismark uzun müddətli fəaliyyəti və təşkilatçılığı ilə hersoqluqları birləşdirdi, vahid Almaniya dövləti yaradaraq, kansler oldu. Onun kansler olduğu müddətdə həyata keçirdiyi ilk tədbirlər məktəblərin, yüksək təhsilin təşkili, yüksək ixtisaslı müəllimlərin yetişdirilməsi oldu. Bir müddət sonra Avstriya ilə müharibədə qələbəsindən sonra ondan bu qələbənin səbəbini soruşanda, ordudan danışmır. Cavab verir ki, bizim güclü müəllimlərimiz var və ordunu da yetişdirən müəllimdir. Əgər müəllim öz ixtisasını mükəmməl bilirsə və öyrətmək ustalığı varsa, doğrudan da millət üçün strateji əhəmiyyətli işdən yapışıb və onu yerinə yetirməli olduğunu düşünürsə, millət inkişaf edəcək. Çünki təhsil əsasdır. Həkimlər də həmçinin... Ona görə də, mən bayaqkı fikirlə tam razılaşıram və bundan ibrət dərsi götürmək lazımdır.

**- Əjdər müəllim, bu mənada Azərbaycanda sağlam təhsil ocaqlarından hansılarını dəyərləndirirsiniz?**

- Deyim ki, istər təhsil, istərsə də tibb sahəsində yaxşı, vətəndaş qeyrətli mütəxəssislər var. Amma təəssüf ki, əksəriyyət belə deyil.

Azərbaycanda təhsil üzrə islahat həyata keçirilir, ölkə Prezidentinin təsdiq etdiyi proqramlarla çox iş görülür.

Lakin ilk növbədə pedaqoji kadrların səviyyəsi qaldırılmalıdır. Nə müəllimlikdə, nə də həkimlikdə təmənna gözlənilməməlidir. Kiminsə pulunu alıb, müəllimlikdə və təbiblikdə pisə yaxşı, yaxşıya pis demək, doğum evinə getmiş adamı pul vermədiyi üçün günlərlə uzadıb ölümə məhkum etmək olmaz. Deməli, vətəndaşlıq qeyrəti də əsasdır.

Əlbəttə, dünya xali deyil, bizim təhsil sistemimizdə yaxşı məktəblər var. Düzdür ki, ideallıq yoxdur, hər şey nisbidir. Yaxşı məktəblər kimi avadanlığına, yüksək təchizatına və ali məktəblərə qəbul nəticələrinə görə 20, 160, 220, 114 nömrəli məktəblərin adlarını çəkmək olar. Lakin adlı-sanlı lisey və gimnaziyalar da var ki, orada hər şey təmənna üzərində qurulmuşdur. Məktəbə qəbul xahiş-minnətlə, təmənna ilədir.

Repetitorluq dəb düşüb. Hər uşaqdan 80, 100, 200 manat pul alırlar. Dərs qurtarandan sonra yenidən uşaqları bir yerə toplayaraq, dərs keçirlər. Özü də bu məktəblər adlı-sanlı məktəblər hesab olunur, lakin içərisində mənəvi çürümə gedir. Yaxşı müəllimlər isə mənəviyyatsızlıq, çürüklük içərisində özlərini göstərə bilmirlər. Təhsil o qədər şəffaf, müqəddəs və təmiz şeydir ki, o, heç nə ilə ləkələnməməlidir.

Professor mənə müraciət edir ki, Əjdər müəllim, sən Təhsil Şurasının sədrisən, şəhərin mərkəzində adlı-sanlı bir məktəbə nəvəmi apardım, qəbul etmədilər, məndən filan qədər pul istədilər. Dövlət məktəbidirsə, niyə məndən pul istəyirlər.

Hətta Milli Məclisin deputatları zəng vurub məndən bu barədə məsləhət istəyirlər. Deməli, bu problem hamıya bəllidir ki, məktəblərimizdəki təmənnalılıq insan baxışını, inamını öldürür. Təmənnalılıq varsa, əlaçı öz əlaçılığını sübut edə bilmir.

Ali təhsil ocaqlarında isə vəziyyət fərqlənir. Bir neçə ali təhsil ocaqları var ki, orada ifrat səviyyədə təmənnalılıq tətbiq olunur. Müəyyən qism də var ki, orada rektor təmənnalılıq tələbində deyil, amma bəzi fakültələrdə bəzi dekanlar, filanlar...

Yaxşıları da çoxdur, özəl-dövlət fərqi qoymayacağam. Çünki təhsil ocağı üçün nə dövlət, nə özəl fərqi ola bilər ki?! Məsələn, Qafqaz Universiteti çox yüksək insani və mədəni, həm də Avropa standartlarına cavab verən səviyyədə qurulmuş bir universitetdir. Mən orada kafedra müdiriyəm və dediklərimin canlı şahidiyəm.

Orada əsas cəhət tələbələrin hakim rol oynamasıdır. Professor-müəllim heyəti tələbəyə xidmət edir. Tələbə istədiyi sözü, fikri deyə bilir, yaxşı mənada təklif irəli sürə bilir, bütün klubları özü aparır. Əlbəttə, müəllimlərin dəstəyi də olur burada. Orada çox səmimi bir kollektiv var. Bütün bunlara da başçılıq edən rektordur.

***Xəzər Universitetindən danışmaq istəyirəm. Bu universitet əvvəldən xarici təcrübəyə istinadən quruldu. Burada Amerika təcrübəsi xüsusən böyük rol oynadı. Mən onun qurucusu və təsisçisi professor Hamlet İsaxanlının fəaliyyətini xüsusi qiymətləndirərdim. Hamlet müəllimin fəaliyyətinin səmərəli nəticəsi sadəcə bir ali məktəb quruculuğunda deyil, onun özünün istedadlı bir insan olması ilə bağlıdır. Bu insan təbiətə elmi baxışla baxa bilir, onun bədii, riyazi təfəkkürü var ki, həyata, quruculuğa, insanlara kompleks yanaşa bilir. O, kompleks yanaşmağı bacardığı üçün də universiteti təsis edəndən xarici təcrübənin tətbiqinə başladı. Oranın mütəxəssisləri uzun müddət xaricdən mühazirələr gətirirdi və nəhayət, ingilis dilində tədrisə keçdilər. Mənə elə gəlir ki, təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini ilk dəfə tətbiq edən Xəzər Universiteti olub. Sonra Hamlet müəllim "Dünya" məktəbi adlanan orta məktəbi yaratdı ki, olduqca gözəldir. Mən orada bir neçə dəfə tədbirlərdə iştirak etmişəm, maraqlanmışam. Orada ayrı-ayrı problemlərin müzakirəsi keçirilir və "Dünya" məktəbi"nin uşaqları, həqiqətən, dünyaya çıxan kiçik "dünya"dırlar. Bir var boyük dünya, bir də var kiçik dünya! Böyük dünya birdir, insanların sayı qədər də kiçik dünya var. Bu, Kamenskinin fikridir. Məhz orada insanların sayı qədər dünya var. Buna görə də, oradakı şagirdlər dünyagörüşlü, hazırcavab olurlar. Sərbəst fikir yürüdə, irəlini görə bilirlər.***

***Xəzər Universitetində də, həmçinin, müasirlik, təmənnasızlıq, müasir texnologiyanın tətbiqi, tələbələrin müstəqil işinin inkişaf etdirilməsi kimi mütərəqqi***

***hallar mövcuddur. Təhsildə müstəqil iş mühüm rol oynayır. Tələbə müstəqil işləyə-işləyə öyrənməlidir. İnformasiya o qədər boldur ki, müəllım onu çatdıra bilmir, yön, istiqamət verir. Qalanını tələbə özü etməlidir. Xəzər Universitetində də bu cəhət var.***

Turizm institutu və Azərbaycan Universitetinin də mütərəqqi təhsil ocaqları kimi adlarını çəkmək istəyirəm. Baki Qızlar Universiteti də təmənnalılığı olmayan təhsil ocağıdır. Burada hər kəs bir-birinin üzünə alnı açıq baxır.

**- Biz çox zaman Şərqlə Qərbin vəhdəti ideyasından çıxış edirik. Buna daha çox milli təfəkkür və milli düşüncəmizi də qatsaq, uğurlarımız çoxalmazmı?**

- Şərq intibahı uzun müddət – ilkin orta əsrlərdən başlamış ta sona qədər öndə olub. XYİİ-XYIII əsrlərdən sonra isə Şərqi öyrənən Qərb öyrəndiklərinin üstünə öz kəşflərini, ixtiralarını gəlib, kütləvi şəkildə bunu tətbiq edərək önə keçib. Və bu gün inkar edilməz faktdır ki, hazırda Qərb irəlidədir. İndi Avropa ilə Asiyanın qovşağında yaşayan biz inkişafımızda Qərblə Şərqin ənənələrindən necə istifadə etməliyik? Hikmətli bir baxış var – ağac hansı torpaqda böyüyürsə, onu o torpaqda əkmək lazımdır, böyüyə bilmədiyi torpaqda əkmək olmaz. İnsan da



harada yaşaya bilirsə, orada yaşamalıdır. Hər bir xalq, millət ilk növbədə özünün milli ənənələrini, prinsip və qaydalarını gözləməli, ali tutmalı və onlara riayət etməlidir. Eyni zamanda, milliliklə yanaşı bəşərilik də, təbii ki, orada böyük rol oynamalıdır. Bəşərilik ən çox intellektin, texnikanın, texnologiyaların inkişafında rol oynamalıdır. Avropanın məişət üçün hazırlanmış texniki cihazları – soyuducusu, televizoru və s. var, qoy olsun. Amma onlardan istifadə edib Novruz bayramımızı keçirəndə, bayramımızın adət-ənələrini unutmamalıyıq. Novruz bayramımıza şərab içməyi tətbiq etsək, həm haram buyurulur, həm də bayramın effektini itirmiş olarıq. Çünki bayram süfrəmizdə şəkərbura, qoğal, cürbəcür naz-nemət var ki, bunun içki təamı şərbətdir, şərab deyil. Deməli, tərbiyəni belə məsələlər üzərində qursaq və özümüzü də bununla formalaşdırsaq, dunyanın harasında olsaq da həm özümüzünkünü, həm də bəşəri dəyərləri yaşaya bilərik. Amma hər halda, bugünki inkişafda bazis olaraq milli prinsipləri, ənənələri, kökə, soya bağlı cəhətləri əsas tutaraq, ümumbəşəri dəyərləri də öyrənməli və nəzərə almalıyıq. Çünki dünyaya çıxış üçün hər ikisini bilmək lazımdır. Yalnız Azərbaycandaki adət-ənənələrlə Amerikaya çıxmaq olmaz. Amma amerikalı Azərbaycana gəlirsə, qoy özümüzü göstərək. Nailiyyətlərimizi, bər-bəzəyimizi, fauna və floramızı göstərək.

Xaricdən yüz minlərlə alınıb gətirilmiş ağaclara, güllərə ehtiyac yoxdur. O ağaclar bizim təbiət deyil. Axı, xaricdən gələn bizi görmək, tanımaq istəyir. Bu yanlış, bəlkə də milliliyi bilməməzlik mövqeyidir. Moskvada kitabımız buraxılırdı: “Antoloqiya pedaqoqiçeskoy mısli Azerbaydjana”. Burada iki tərtibçidən biri mən idim. Redaktorumuz Qalina Semyonovna Qromova milliyyətcə rus idi. Kitabı “Pedaqoqika”nəşriyyatı buraxırdı. O dedi ki, mən bu kitabı yalnız Azərbaycanın məktəblərini, mədəniyyət ocaqlarını və müzeylərini görəndən sonra redaktə edə bilərəm. Burada məsələ üslubda, sözdə deyil, mən onun məzmununun mahiyyətini bilməliyəm. Çox xoşuma gəldi, Bakıya iki dəfə gəldi, Onu Sumqayıta, Gəncəyə apardım. Bakıdan Astaraya qədər Salyanda, Cəlilabadda, Lənkəranda muzeyləri göstərdim. Mədəniyyət yerləri ilə tanış etdim, Təhsil muzeyinə apardım, geniş təsəvvürü oldu. Son gəlişində dedi ki, mən bir də Lənkərana getmək istəyirəm. Maşınla onu Lənkərana aparanda Şorsulunu keçdik Biləsuvara tərəf. O zaman ora Puşkin rayonu idi və yolun qırağında ”Puşkina” yazılmışdı. Dedi ki, Əjdər müəllim, siz məni hara aparırsınız? Burada nə Puşkin şəhəri, mənim xəbərim yox, hara gedirik biz? Balaca Azərbaycandır, bəlkə sərhəddən çıxarmısınız məni? Dedim, belə deyil. Cavab verdi ki, sizin kitabda onlarla görkəmli adamlarınızın adını oxumuşam. Niyə o adamların adı yoxdur? Məgər Puşkinin sizə ehtiyacı var? Xeyr! Sizin Puşkinə ehtiyacınız var? Yox! Niyə qirx beş çap vərəqi həcmində olan bir kitabda adı çəkilən simalardan birinin ismiylə adlandırmamısınız buranı? Və dedi ki, mən Azərbaycanda sizin xalqın adətini, ənənəsini, mədəniyyətini, adlarını görmək istəyirəm. Puşkin mənim Moskvadakı evimin böyründədir.

**- Sözünüzün qüvvəti olaraq, yeni bir sual: Şərqlə Qərb konteksində sivilizasiya məsələsinə necə baxırsınız? Təbii ki, buna da bir neçə prizmadan yanaşmaq olar…**

- Mən sivilizasiyanı İslam dininin yayılmasından sonra qəbul edirəm. Bundan qabaq da nələrsə yaranıb. Minilliklərdən əvvəl sivilizasiya o qədər yüksək olub ki, hələ indi Everestin zirvəsində təyyarə düşən bir yer tapa bilirlər. Yəni o tarix nə vaxtsa olub, indiyə izi-tozu qalıb. Biz indiki dövrdən danışırıq, YI əsrə qədər müxtəlif dinlər olub ki, onlarda da müəyyən qədər bəsitlik var. Məsələn, baxmayaraq ki, atəşpərəstliyin təlimi, məktəbi, fəlsəfəsi, idealı mövcud olub, lakin onu sivilizasiya adlandırmaq mümkün deyil. Nə üçün mən sivilizasiyanı İslamla əlaqələndirirəm? Ona görə ki, İslamın müqəddəs kitabı olan Quran insanın inkişafını elmdə, təhsildə görüb.

**- Və bir də indiki qloballaşma ideyası hələ o**

**zaman Məhəmməd Peyğəmbərin(s) təlimində var idi...**

- Bəli, Məhəmməd Peyğəmbərin təlimində Allahın yaratdığı insanların bacı-qardaş olduğu göstərilir. Hətta mən hədislərdən birində oxumuşam ki, gələcəkdə bütün dünya Məhəmməd Peyğəmbərin(s) birləşmək ideyasını, Allah tərəfindən yaradılmış bütün insanların bərabərliyi ideyasını qəbul edəcək. Çünki ideya bu gün həqiqətən də qlobaldır. Dünyanın hər yerində insanlar, hətta bir çox xristian alim və sənət adamları müsəlmanlığı qəbul edirlər. Ona görə ki, İslamda humanizm, düzlük, bəşəri mahiyyət güclüdür. Bəziləri deyir ki, İslam lokal mahiyyət daşıyır, lakin belə deyil. İslam qlobal, bəşəri mahiyyət daşıyır. YI-YII əsrlərdən başlayaraq İslam dininin təsiri ilə məktəblər yarandı və bunun nəticəsində böyük-böyük alimlər yetişdi. Ömər Xəyyam, Bəhmənyar, Nəsirəddin Tusi, İbn Sina – bu alimlər İslamdan sonra tanınan elm adamlarıdır. Ömər Xəyyamın həndəsəyə gətirdiyi yenilikləri, Əl-Xarəzminin alqoritmini Avropa mənimsədi.

Sivilizasiya o zamandan başladı və intibah da bundan sonra yarandı. Ədəbiyyatın, fəlsəfənin, sənət sahələrinin hamısının metodologiyası Qurandan gəlir. Ona görə də, klassik poeziya nümayəndələri humanizmi, əməksevərliyi, ədaləti, şahlarda adilliyi, insani münasibətləri təbliğ edirdilər. Bu sivilizasiya artıq XİX əsrdən sonra Avropaya keçdi. Əslində xristianlar sivilizasiyanın qarşısını alırdılar, Koperniki yandırdılar, Qalileyi cəzalandırdılar. Sonradan – Şərqi öyrənə-öyrənə, dərk edə-edə başa düşdülər ki, sivilizasiya elmdədir.

Bütün səmavi kitabların hər biri insanları mədəniyyətə, mərifətə, sivilizasiyaya çatdırmaq üçündür, amma Quran son kitab olduğuna görə əsl, müasir sivilizasiyanin mənbəyi oradan başlayır.

**- Tamamlanan min ildə tamamlanmamış qalan və ziyalıya ünvanlanan üç ən qlobal ümum-milli amal və missiya? Və bu tamamlanmamış məsələlərin həllində ziyalı amilinin günahı, rolu və səhvi?**

- Bəlkə də üç yox, çox demək olar. Tamamlanan min ildə yüz il öncə ziyalılar arasında olan şəxsi münasibət, qərəzçilik, pulun hökmranlığı, milli heysiyyətin güclü olmaması və sair məsələlər öz həllini hələ də tapmayıb. M.Ə. Sabir o zaman yazırdı ki, "Millət necə tarac olur-olsun, nə işim var?!", "Fəhlə, özünü sən də bir insanmı sanırsan?!" Bu günün Sabiri də həmin şeyləri deyə bilər – deməli, tamamlanmayıb! Və bu milli dəyəri tamamlamaq, kütləviləşdirmək, təbii ki, ziyalılardan asılıdır.

İkincisi, mən istərdim ki, Azərbaycandakı ailələr milli ənənələrə, milli sədaqətə, milli xüsusiyyətlərə, milli kulinariyaya sadiq qalmaqla, həm də müasir baxışlı olsunlar. Beləlləri var, amma kütləvi deyil, çox azdır. İstərdim ki, ziyalılarımız ailə mədəniyyətinin formalaşmasına təsir göstərsinlər. Bunun üçünsə, özləri də nümunə olmalıdırlar.

Maestro Niyazi ilə ömrünün son illərində onunla çox yaxın dost olmuşuq. Məsələn, onun ailəsi,həyat yoldaşı Həcər xanımla gözəl, saf, mehriban münasibətləri hər kəsə nümunə ola bilər. Niyazi heç vaxt Həcər xanımın şəxsi işlərinə qarışmayib, azadlığına qadağalar qoymayıb. Nə də Həcər xanım Niyazinin işlərinə müdaxilə etməyib. Ailədəki səmimiyyət onların yaradıcılığına, bu adamların hər gələn günü xoş qarşılamalarına imkan yaradırdı.

Üçüncü, əsas məsələlərdən biri cəmiyyətimizdə olan qeybətdir. Dinimiz də qeybəti, xəbərçiliyi qadağan edir. İslam həm də kiminsə eybini deməyi, pisliyindən danışmağı qadağan edir. İdeal insan yoxdur, sən kiminsə pis işindən danışırsansa, oda səndə olmayan işləri də tapıb deyə bilər. Bizim millətdə qeybət, paxıllıq daha çoxdur. Bu, eqoizmdən yaranır. Ziyalılar bu mövzuda örnək olan fikirlər yürütsələr, qeybət olmaz. O halda hamı öz işi ilə məşğul olar, cəmiyyət daha da inkişaf edər.

İstərdim ki, bugünkü dövrdə bizim adamlar şəxsiyyət və ləyaqətlərini kiminsə verdiyi nələrəsə satmasınlar, bu məsələ bu gün aktualdır. Ziyalıdan çox şey asılıdır. Ləyaqət, şərəf, mədəniyyət nəfsin toxluğu...

**- Müsahibəyə görə təşəkkür edirəm**.

*Müsahibəni apardı:*
*Afaq Əbdülqızı*






# OQTAY ƏFƏNDİYEV VƏ TARİXİMİZ



2013-cü il fevral ayının 26-dan 27-nə keçən gecə çoxsaylı tarixçilər nəslinin ustadı, Azərbaycan səfəvişünaslıq məktəbinin banisi, Xəzər Universitetinin sabiq əməkdaşı, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əbdülkərim oğlu Əfəndiyev 87 yaşında vəfat etdi.

O.Əfəndiyev 1926-cı il martın 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, keçmiş SSRİ-nin ən nüfuzlu ali təhsil ocaqlarından sayılan Moskva Şərqşünaslıq İnstitutunu bitirmiş, SSRİ EA-nın Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil almışdır. 1955-ci ildə namizədlik dissertasiyasını, 1969-cu ildə isə doktorluq dissertasiyasını müdafiə etmiş, 1993-cü ildə professor elmi adını almışdır. 60 ilə yaxın bir müddətdə AMEA Tarix İnstitutunda və təxminən 10 il ərzində Xəzər Universitetində çalışmışdır. 2001-ci ildən etibarən AMEA-nın müxbir üzvü idi.

O.Əfəndiyev Azərbaycan səfəvişünaslıq məktəbinin banisidir. İlk dəfə məhz o, Səfəvilər dövlətinin Azərbaycan dövləti olmasını tutarlı elmi faktlar əsasında sübut etmişdir. Oqtay müəllimin araşdırmalarından əvvəl dövlətçiliyimizin Səfəvi dövrü sanki tariximizin qaranlıqlarında itib-batmış gizli bir xəzinə idi. Əgər bu xəzinənin üzərinə O.Əfəndiyev günəşinin şəfəqləri düşməsəydi, yəqin ki, bizlər bu zəngin irsin bərq vuran parlaqlığını hələ uzun müddət aydın bir şəkildə müşahidə edə bilməyəcəkdik.

Görkəmli tarixçinin bu mövzuda nəşr etdirdiyi iki sanballı monoqrafiya – “XVI əsrin əvvəllərində Azərbaycan Səfəvilər dövlətinin yaranması” (rusca: Bakı, 1961) və “Azərbaycan Səfəvilər dövləti XVI əsrdə” (rusca: Bakı, 1981) dövlətçilik tariximizin öyrənilməsi baxımından əvəzsiz rol oynamışdır. Sonuncu əsər Azərbaycan dilinə tərcümə edilmiş, 1993-cü və 2007-ci illərdə iki dəfə nəşr olunmuşdur. Bunlardan əlavə, O.Əfəndiyev Səfəvi tarixinə dair bir sıra ilkin mənbələri fərdi qaydada və ya bəzi müəlliflərlə müştərək şəkildə tərcümə etmişdir. Zeynalabidin Əli Əbdi bəyin “Təkmilətül-əxbar” əsərinin I Şah İsmayıla dair hissəsinin və Oruc bəy Bayatın tarix kitabının ruscaya, Venesiya elçilərindən Mikele Membrenin ve Vinçentso D'Alessandrinin səyahətnamələrinin azərbaycanca və ruscaya, İsgəndər bəy Münşinin “Tarixi-aləmarayi-Abbasi” əsərinin birinci cildinin azərbaycancaya tərcümələri bu qəbildəndir. Onun akademik Z.Bünyadovla birlikdə rusca nəşrə hazırladığı Ağqoyunlu saray tarixçisi Fəzlullah ibn Ruzbehan Xuncinin “Tarixi-aləmarayi-Əmini” əsəri də bu baxımdan diqqətəlayiqdir.

O.Əfəndiyev öz elmi fəaliyyəti ərzində azərbaycanca, türkcə, rusca, ingiliscə, fransızca, farsca və s. dillərdə 200-dək elmi və ensiklopedik məqalə, məruzə, tezis, tarixi xəritə və s. nəşr etdirmişdir. Bu əsərlərin 50-dən çoxu respublikamızdan kənarda çap olunmuşdur. Oqtay müəllimin tədqiqatları Azərbaycanda, Türkiyədə, Rusiyada, İranda, Gürcüstanda, Qazaxıstanda, Fransada, Əfqanıstanda, İngiltərədə, ABŞ-da və digər ölkələrdə işıq üzü görmüşdür. O, 30-dək beynəlxalq elmi konfransın iştirakçısı olmuş, Sankt-Peterburqda, Moskvada, Alma-atada, Tiflisdə, Suxumidə, Batumidə, Londonda, Madisonda, İstanbulda, Kayseridə, Ankarada, Bodrumda, Bağdadda və s. şəhərlərdə keçirilən elmi toplantılarda oxuduğu məruzələrlə Azərbaycan tarix elmini layiqincə təmsil etmişdir. Beynəlxalq elmi ictimaiyyət tarixi keçmişimizlə bağlı bir çox gerçəklikləri məhz onun dilindən eşitmiş və onun qələmindən oxumuşdur.

Alimin məqalələri başlıca olaraq Azərbaycan Səfəvilər dövlətinin ictimai-siyasi və sosial-iqtisadi tarixinin çoxşaxəli tədqiqinə, həmin dövr tariximizin mənbəşünaslığına və tarixşünaslığına həsr edilmişdir. Bundan başqa, Oqtay müəllim vətənimizin orta əsrlər tarixinin digər dövrlərinin və problemlərinin öyrənilməsinə, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular və Şirvanşahlar dövlətlərinin araşdırılmasına yönəlmiş məqalələrin də müəllifidir. O, Azərbaycan tarixinə dair farsdilli mənbələrə (“Təkmilətül-əxbar”, “Xülasətüt-təvarix”, Rəşidəddin “Oğuznamə”si, “Tarixi-elçiyi-Nizamşah”, “Zübdətüt-təvarix”, “Tarixi-Şah İsmayıl”, “Həbibüssiyər”, “Kitabi-Diyarbəkriyyə”, Şah Təhmasibin təzkirəsi, N.Tusinin maliyyə risaləsi və s.), Osmanlı (İbrahim Rəhimizadənin əsərləri) və Avropa (Oruc bəy Bayatın, Minadoinin, Membrenin əsərləri və s.) qaynaqlarına aid məqalələri ilə neçə-neçə öyrənilməmiş və lazımi diqqətdən kənarda qalmış ilkin məxəzləri elmi ictimaiyyətə tanıtmışdır. O.Əfəndiyevin tarixşünaslığa dair məqalələri tarixçi alimlərimizin elmi fəaliyyətlərinin təhlilindən və Azərbaycan tarixinə həsr olunmuş ümumiləşdirici əsərlərin və monoqrafiyaların tənqidi dəyərləndirilməsindən ibarətdir. Onun Ə.Quliyevin, Ə.Əlizadənin, S.Aşurbəylinin, V.Bartoldun, F.Sümerin, F.Kırzıoğlu-

nun, S.Erşahinin, R.Rəisniyanın, C.Heyətin və başqalarının elmi axtarışları və əsərləri haqqında yazdığı məqalələr bu səpkidəndir.

Tarixçinin bir sıra tədqiqatları Azərbaycanın dövlətçilik ənənələrinə, ölkəmizin hərbi və ictimai-siyasi tarixinə həsr edilmişdir. O, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərinin mülki və əsgəri təşkilatına, Səfəvilərin XV əsrdəki fəaliyyətlərinə, I Şah İsmayılın daxili və xarici siyasətinə, I Şah Təhmasibin şəxsiyyətinə, Şirvanşahlar dövlətinin son dövrünə, Səfəvilər dövlətinin qurulmasında türk tayfalarının roluna, Səfəvi – Osmanlı münasibətlərinə və s. bu kimi məsələlərə dair çoxsaylı məqalələrin müəllifidir. Orta əsrlər dövründə Azərbaycan tarixinin sosial-iqtisadi məsələləri tədqiqatçının diqqətini cəlb edən mühüm amillərdən olmuşdur. Alimin XIII-XVII əsrlərdə Bakıda neft hasilatı, XV-XVI əsrlərdə Azərbaycanda feodal torpaq mülkiyyəti formaları, soyurğal təsisatı, tamğa vergisi, monqol-tatar yürüşlərindən sonrakı dövrdə Orta Şərqdə oturaq və köçəri əhali qrupları və s. haqqında məqalələri məhz ölkəmizin və bütövlükdə Şərq aləminin sosial-iqtisadi tarixi üzrə problemlərin öyrənilməsinə həsr olunmuşdur. O.Əfəndiyevin Azərbaycanın ayrı-ayrı bölgələrinin – Qarabağ, Gəncə, Şirvan, Təbriz və Ərdəbilin tarixinə dair müxtəlif araşdırmaları mövcuddur.

Oqtay müəllim Azərbaycan tarixi üzrə 10-a qədər ümumiləşdirici əsərin yazılmasında iştirak etmiş, müstəqillik illərində çapdan çıxmış yeddicildlik “Azərbaycan tarixi”nin üçüncü cildinin məsul redaktoru və başlıca müəlliflərindən olmuşdur.

O, həmçinin, “Azərbaycan Sovet Ensiklopediyası”nın, Moskvada dərc edilmiş çoxcildlik “SSRİ tarixi”nin və “Sovet Tarix Ensiklopediyası”nın, İstanbulda yayımlanmış “İslam Ensiklopediyası”nın müəlliflərindən biridir. O.Əfəndiyev həm də “Azərbaycan Milli Ensiklopediyası”nın redaksiya heyətinin üzvü idi.

Ustad tarixçi 20-dən artıq kitabın elmi redaktoru olmuşdur. Bu əsərlər əsas etibarilə vətənimizin orta əsrlər tarixinə dair mənbələrdən və monoqrafiyalardan ibarətdir.

Uzun illər ərzində AMEA Tarix İnstitutunun “Azərbaycanın orta əsrlər tarixi” şöbəsinə rəhbərlik edən Oqtay müəllim 6 elmlər doktoru və 12 elmlər namizədi yetişdirmişdir. O.Əfəndiyev kimi görkəmli bir elm xadiminin rəhbərliyi altında və onun dəyərli məsləhətləri əsasında tədqiqatlar aparmaq və dissertasiya yazmaq səadəti bu sətirlərin müəllifinə də nəsib olmuşdur. Necə ki, Şah Xətai buyurmuşdur:

*“Rəhbərsiz heç yol bulunmaz,*
*Buldum deyən yalan söylər”.*

Elmi axtarışlarım ərzində mənə bir mayak kimi daim doğru yol göstərmiş mərhum ustadımı hər zaman minnətdarlıq hissi ilə xatırlayacağam. Hələ tələbəlik illərimdə elmi əsərlərini heyranlıqla mütaliə etdiyim O.Əfəndiyevlə 2001-ci ildə, AMEA Tarix İnstitutunun aspiranturasına qəbul olduğum zaman şəxsən tanış olmaq şərəfinə nail oldum və 11 ildən artıq bir müddətdə bu böyük alimlə bərabər çalışdım. Oqtay müəllim dünya miqyaslı bir elm xadimi olmasına baxmayaraq, təkəbbür hissi ona tamamilə yad idi. Məhz onun səmimiyyəti, təvazökarlığı və qayğıkeşliyi sayəsində bu illər ərzində aramızda mehriban dostluq münasibətləri yaranmışdı. Oqtay müəllimlə müxtəlif elmi mövzularda



saatlarla söhbət edər, onun fikirlərindən, düşüncələrindən, mülahizələrindən və tövsiyələrindən bəhrələnərdik. 2009-cu ildə I Şah Abbasın saray tarixçisi olmuş azərbaycanlı müəllif İsgəndər bəy Münşinin “Tarixialəmarayi-Abbasi” əsərini müştərək surətdə nəşr etdirməyimiz ustadın böyük sevincinə səbəb olmuşdu. Vəfatı ərəfəsində Səfəvi dövrünün digər bir azərbaycanlı tarixçisi olan Həsən bəy Rumlunun “Əhsənüttəvarix” əsərinin fars dilindən tərcümə edilməsi ilə məşğul idik və işin böyük bir hissəsi görülüb qurtarmışdı. Təəssüf ki, əcəl imkan vermədi və bu əsərin nəşrini görmək Oqtay müəllimə nəsib olmadı.

Nüfuzlu alim bir müddət həm də pedaqoji fəaliyyətlə məşğul olmuş, müxtəlif vaxtlarda Bakı Dövlət Universitetində və Türkiyənin Mərmərə Universitetində mühazirələr oxumuşdur. Tarixçi alimin elmi-pedaqoji fəaliyyətinin mühüm bir hissəsi də Xəzər Universiteti ilə bağlıdır. Belə ki, O.Əfəndiyev 1994-2004-cü illərdə Xəzər Universitetində çalışmış, burada fəaliyyət göstərən Qafqaz və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru olmuş, həmçinin universitetimizin Tarix və arxeologiya departamentində fəaliyyət göstərmiş, tələbələrə Azərbaycan Səfəvilər dövlətinin tarixi ilə bağlı mühazirələr oxumuşdur. Mərhum alim Xəzər Universitetinin elmi və ictimai həyatında yaxından iştirak etmiş, universitetin elmi şurasının üzvü olmuş, 1997-ci ilin sentyabr ayının 24-26-da Xəzər Universiteti tərəfindən keçirilmiş “Şah İsmayıl və onun dövrü” adlı beynəlxalq konfransın təşkilində və gedişində fəallıq göstərmişdir. 1996-cı ildə Xəzər Universitetində O.Əfəndiyevin 70 illik yubileyi təntənəli mərasimlə qeyd olunmuş və bu münasibətlə alimin biblioqrafiyası nəşr edilmişdir.

Tarix elmi qarşısındakı xidmətləri müqabilində O.Əfəndiyev “Şərəfli əməyə görə” medalı (1982), “Şərəf nişanı” ordeni (1986) və Azərbaycan Respublikasının “Şöhrət” ordeni (2004) ilə təltif edilmişdir. 2006-2007-ci illərdə görkəmli alim Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasınının tarix üzrə ekspert şurasının sədri olmuşdur.

O.Əfəndiyev xarici ölkələrdə ən çox istinad olunan tarixçilərimizdən biridir. İ.P.Petruşevski, H.R.Roemer, Jan Pol Ru, F.Sümer, Y.E.Bregel, İ.Melikoff, A.Allouç,



S.Kitaqava, O.Altştadt, K.K.Kutsiya, E.Qrüner, A.Yaman, M.Temizkan, N.Çetinkaya, Y.İ.Vasilyeva, L.P.Smirnova və dünyaca məşhur bir sıra digər əcnəbi tədqiqatçılar onun əsərlərinə dönə-dönə müraciət etmiş, öz tədqiqatları zamanı Oqtay müəllimin ortaya qoyduğu elmi nəticələrdən bəhrələnmişlər. Onun Azərbaycan Səfəvilər dövləti ilə əlaqədar tədqiqatları böyük elmi əhəmiyyət kəsb etməsi ilə yanaşı, həm də neçə-neçə nəsillərin vətənpərvərlik ruhunda tərbiyə alması üçün ilham mənbəyi olmuşdur. Böyük ustad bütün bu nailiyyətləri Azərbaycanın, keçmiş SSRİ-nin, bəzi Avropa ölkələrinin və Türkiyənin arxivlərində, əlyazma kolleksiyalarında və kitab fondlarında keçirdiyi gərgin axtarışların sayəsində əldə etmişdir.

Vətənimizin orta əsrlər tarixinin yazılmasından bəhs edərkən Oqtay müəllim deyərdi: "Orta əsrlər tarixi öz tədqiqatçısının göz yaşları ilə yazılan tarixdir. Belə ki, biz orta əsrlərə aid qaynaqların əksəriyyətində Azərbaycan tarixinin sistematik şərhinə rast gəlmirik. Vətənimizin orta əsrlər tarixini araşdırmaq məqsədi güdən tədqiqatçı dünyanın müxtəlif kitab kolleksiyalarına səpələnmiş, əsasən ərəb və fars dillərində, həm də çox tərəqlı bir üslubda yazılmış əlyazma qaynaqlarını diqqətlə oxumağı və tariximizlə bağlı məqamları aşkarlayıb təhlil etməyi bacarmalıdır. Hər bir nöqtənin vacib əhəmiyyət daşıdığı və mənanı dəyişə bildiyi ərəb qrafikalı əlifba ilə müxtəlif xətt növlərində qələmə alınmış və əsrlərin sınağından, təbiət hadisələrindən, rütubətdən və s. səbəblərdən korlanmış, ilkin görkəmini itirmiş bu cür əlyazmaların tədqiqi üzərində illərlə çalışmaq tədqiqatçıdan böyük bir zəhmət və təmkin tələb edir. Bu isə ilk növbədə tədqiqatçının göz nuru və göz yaşları hesabına başa gəlir. Uzun müddət qədim əlyazmaları tədqiq edən və mətndəki hər bir nöqtəyə diqqət yetirən alimin iş prosesində gözləri yaşarır və o, tarixi təkcə mürəkkəblə deyil, həm də öz göz yaşları ilə yazmalı olur. Orta əsr tədqiqatçılarını digər dövrlərin araşdırmaçılarından fərqləndirən amillərdən biri də elə budur". Oqtay müəllim də tariximizi göz yaşları ilə yazan tarixçilərdən idi. Lakin bu göz yaşları təkcə mətnşünaslıq prosesinin ağırlığından deyil, həm də tariximizin fərəhli və ağrılı səhifələrindən doğan sevinc və kədər yaşları idi. O.Əfəndiyevin yazdığı tarix də göz yaşları qədər şəffaf idi. Burada saxtakarlığa, riyakarlığa və yalana yer yox idi. O, gündəlik həyatında səmimi insan olduğu kimi, tədqiqatçı kimi fəaliyyətində də obyektiv və qərəzsiz idi.

O.Əfəndiyevin vəfatı ilə Azərbaycan tarix elmində elə bir boşluq yaranmışdır ki, bu boşluğu uzun illər boyu doldurmaq mümkün olmayacaqdır. Allah sənə rəhmət eləsin, Ustad!

**_Namiq Musalı,_**
_tarix üzrə fəlsəfə doktoru,_
_Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi_



## HÜQUQ TƏDRİS MƏRKƏZİNDƏ NÖVBƏTİ TƏLİMLƏR

Aprelin 13-də Hüquq Tədris Mərkəzində növbəti təlimlər keçirilmişdir. "İnsan Hüquqları" üzrə keçirilən təlimdə Bakı Dövlət Universiteti, Milli Aviasiya Akademiyası və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasından olan hüquq fakültəsinin tələbələri iştirak etmişdir. "Avropa insan hüquqları məhkəməsinin Azərbaycan Respublikasına qarşı çıxarılan qərarlarının təhlili " mövzusunda keçirilmiş təlimlərin eksperti Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin insan hüquqları müdafiəsi məsələləri sektorunun böyük məsləhətçisi və Xəzər Universitetinin müəllimi Səadət Novruzova idi.

## "ELM ÜÇBUCAĞI" ADLI PROQRAMIN NÖVBƏTİ ÇƏKİLİŞİ

Aprelin 16-da Xəzər Universitetində İctimai TV-də Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi üçün çəkiliş aparıldı. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qədim dünyanın akademiyaları və İslamın qızıl çağında təhsil haqqında iki mühazirə oxudu. Universitetin əməkdaşları dinləyici qismində iştirak etdilər. Veriliş may ayında İctimai TV-də efirə veriləcək.

## GƏLİRLƏRƏ NƏZARƏT İNSTİTUTUNUN DİREKTOR MÜAVİNİ "XƏZƏR"DƏ

Aprelin 17-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ABŞ-ın Gəlirlərə Nəzarət İnstitutunun (Revenue Watch Institute) direktor müavini Suneeta Kaimalı qəbul etdi. Görüşdə Xəzər Universiteti ilə Gəlirlərə Nəzarət İnstitutunun gələcək əməkdaşlıq planları, habelə Gəlirlərə Nəzarət İnstitutunun dəstəyi ilə Xəzər Universitetində 2010-cu ildə yaradılmış Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzinin hazırkı fəaliyyəti və gələcək inkişaf perspektivləri müzakirə olundu.

Görüşdə Avrasiya Hasilat Sənayesi Bilik Mərkəzinin direktoru, professor İnqilab Əhmədov iştirak edirdi.

## OLİMPİADAYA HAZIRLIQLA ƏLAQƏDAR MƏKTƏBLƏRDƏ GÖRÜŞLƏR

Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru, Olimpiadaya Hazırlıq üzrə Təşkilat Komitəsinin sədr müavini Əlövsət Əmirbəyli aprelin 1-də Xətai rayonundakı 64 və 95, aprelin 2-də 17, 25, 88, 138, 165 və 261, aprelin 3-də 24, 48, 171, 204 və 264 saylı orta məktəblərdə, aprelin 4-də Sabunçu rayonundakı 74, 80, 271 və 310, aprelin 5-də 94, 107, 108, 169 və 252, aprelin 8-də Sabunçu rayonundakı 67, 170, Nərimanov rayonundakı 73 saylı orta məktəblərdə və Xətai rayonundakı Zəkalar liseyində, aprelin 9-da Suraxanı rayonundakı 89, 101, 104 və 146, aprelin 10-da Suraxanı rayonundakı 318, Nərimanov rayonundakı 36, 47, 200 və 258, aprelin 11-də Suraxanı rayonundakı 275, 278, 279, 282, 285 və 290, aprelin 12-də Xətai rayonundakı 27, 56, 147 saylı və H. Əliyev adına orta məktəblərdə, aprelin 15-də Nəsimi rayonundakı 133 saylı orta məktəbdə, İlyas Əfəndiyev adına Elitar Gimnaziyada, Türk Dünyası Bakı Atatürk Lisesində, Yasamal rayonundakı 21, 53 ,189, 190 saylı orta məktəblərdə və Türkiyə Diyanət Vəqfı Bakı Türk Lisesində, aprelin 16-da Binəqdi rayonundakı 99, 100, 126, 143, 126 və 248, aprelin 17-də Səbail rayonundakı 7, 91, 160, 203 və Nəsimi rayonundakı 1 və 8 saylı saylı orta məktəblərdə, aprelin 18-də Nərimanov rayonundakı 45, 82, 93, 177, 193, 207 və 212, aprelin 19-da Xəzər rayonundakı 123, 149, 156, 183, 237, 234, 326 saylı orta məktəblərdə və S.Rüstəm adına gimnaziyada olmuşdur. Ə.Əmirbəyli həmin məktəblərin direktorları və XI sinif şagirdləri ilə görüşmüş, onlara Xəzər Universitetindəki ixtisaslar, Xəzər Universitetinin Hazırlıq Mərkəzi (XUHM) və universitetin may ayında ölkə üzrə keçiriləcək ənənəvi X Olimpiadasının şərtləri haqqında geniş məlumat vermiş və məktəblilərin çoxsaylı suallarını cavablandırmışdır.

## BAKIDA İLİN ƏN BÖYÜK TƏHSİL SƏRGİSİ KEÇİRİLMİŞDİR

*Bakıda keçirilən təhsil sərgiləri azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil almaları üçün geniş imkanlar yaradır*



Aprelin 13-15-də Türkiyənin məşhur "Akare International Education Fairs" şirkətinin təşkilatçılığı ilə Bakıda 2013-cü ilin ən böyük təhsil sərgisi keçirilmişdir.

AzərTAc xəbər verir ki, sərgidə Türkiyə, Şimali Kipr, Malayziya, ABŞ, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Avstraliya, İsveçrə, Belarus, İtaliya, Kanada, Fransa və digər ölkələrin nüfuzlu universitetləri, dil kursları və şirkətləri iştirak etmişlər. Ümumilikdə, sərgidə 19 ölkənin 80 ali təhsil ocağı təmsil olunmuşdur. Sərgidə Azərbaycanı təmsil edən azsaylı təhsil ocaqlarından biri də Xəzər Universiteti idi.

Tədbirdə iştirakçılara xaricdə təhsil, MBA proqramları və dil kursları barəsində ətraflı məlumatlar verilmişdir. Universitetlərin, dil kurslarının və beynəlxalq təhsil təşkilatlarının nümayəndələri təmsil etdikləri qurumlarda təhsil almaq şərtləri, müxtəlif ixtisaslar üzrə tədris proqramları və digər məsələlərlə bağlı sualları cavablandırmışlar.

Eyni zamanda, bu təhsil qurumlarının azərbaycanlı tələbələr üçün pulsuz təhsil almaq imkanı yaradan proqramları da təqdim olunmuşdur.

"Akare International Education Fairs" (AİEF) şirkətinin icraçı direktoru Nazim Özsoylu AzərTAc-a müsahibəsində bildirmişdir ki, AİEF 12 ildir altı ölkədə təhsil sərgilərinin keçirilməsi ilə məşğuldur. Azərbaycanda son illər xaricdə təhsilə maraq artdığı üçün burada da sərgilər keçiririk. AİEF artıq altı ildir Azərbaycanda təhsil sərgiləri təşkil edir. Bu, sayca doqquzuncu sərgidir. Son üç ildən bəri Bakıda ildə iki dəfə - baharda və payızda sərgilər keçiririk. Sərgidə məqsədimiz azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil almalarına kömək etməkdir.

N.Özsoylu demişdir ki, beynəlxalq təhsil yalnız Azərbaycan və Türkiyə üçün deyil, hər bir ölkə üçün vacib məsələlərdəndir. Nə qədər çox azərbaycanlı gənc xaricdə təhsil alarsa, Azərbaycanda o qədər də çox insan zəngin məlumatlara sahib olar. Eyni zamanda, ölkənin idxalat və ixracatı, beynəlxalq ticarəti, turizmi sürətlə inkişaf edər və beləliklə, Azərbaycan iqtisadiyyatının daha böyük inkişafına zəmin yaranar. Xaricə gedən tələbələr Azərbaycanı həmin ölkələrdə təmsil etməklə yanaşı, onun daha çox tanınmasına kömək edirlər. Bu baxımdan xaricdə təhsilin böyük əhəmiyyəti vardır. Xaricdə təhsil alıb Azərbaycana geri dönən gənclərin sayı çox olarsa, Azərbaycan daha sürətlə inkişaf edər, dünyada nüfuzu artar, onun adını daha çox yerlərdə eşidərlər. Bakıda keçirilən təhsil sərgiləri azərbaycanlı gənclərin xarici ölkələrdə təhsil almaları üçün geniş imkanlar yaradır.



## VALİDEYNLƏRİNİ İTİRMİŞ UŞAQLARIN TƏHSİL HAQQINI DÖVLƏT ÖDƏYƏCƏK

*Aprelin 10-da Milli Məclisdə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanuna dəyişikliklər edilib.*

Bu barədə Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli məlumat verib. Dəyişikliyə əsasən, Azərbaycanda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, dövlət və özəl təhsil müəssisələrində ödənişli təhsil alan uşaqların təhsil haqqı dövlət hesabına ödəniləcək. Hadi Rəcəbli bildirib ki, Azərbaycanda 2009-2012-cu ildə bu kateqoriyadan olan 166 tələbədən 19 nəfəri ödənişli əsasla oxuyur, bunların 17-i isə özəl ali təhsil müəssisələrində təhsil alır. O qeyd edib ki, əgər uşaq valideynlərindən birini itiribsə və ikinci valideynin əlillik statusu varsa, həmin uşaq da bu güzəştlərdən yararlana bilər.

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ HESABAT KONSERTİ



Aprelin 5-də NDU incəsənət fakültəsinin fortepiano kafedrası universitet kollektivini növbəti hesabat konserti ilə sevindirmişdir.

Əvvəlcə kafedra müdiri, Prezident təqaüdçüsü, Əməkdar Mədəniyyət İşçisi, professor Səidə Məmmədova rəhbərlik etdiyi kafedra haqqında məlumat vermişdir. Hesabat konsertinin proqramında Azərbaycan klassik musiqisinin görkəmli nümayəndələri, Cahangir Cahangirov, Tofiq Quliyev və Səid Rüstəmovun, həmçinin, xalq artisti Faiq Sücəddinovun məşhur bəstələri, habelə dünya klassiklərindən Pyotr Çaykovski, Volfqanq Amadey Motsart, Frederik Şopen, Frants Yozef Haydn və başqalarının məşhur əsərləri səsləndirilmişdir.

İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Mübariz Əsgərov, bəstəkarlıq kafedrasının müdiri Kamal Əhmədov konsertlə bağlı fikirlərini bölüşmüşlər. Universitetin rektoru, akademik İsa Həbibbəyli tələbələrin musiqi hazırlığından, səhnə mədəniyyətindən razılığını bildirmiş, müəllim və tələbələrə gələcəkdə repertuarlarını daha da genişləndirməyi tövsiyə etmişdir.

## III ÜMUMUNİVERSİTET BİLİK YARIŞMASI KEÇİRİLMİŞDİR



Aprelin 17-də Naxçıvan Dövlət Universitetinin (NDU) Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Heydər Əliyev və Naxçıvan" mövzusunda ingilis dilində III ümumuniversitet bilik yarışması keçirilmişdir.

Tədbirdə universitetin rektoru, akademik İsa Həbibbəyli ümummilli lider Heydər Əliyevin siyasi kursunun bugünkü layiqli davamından, ölkədə aparılan təhsil və gənclər siyasətinin uğurundan danışmışdır. Rektor, həmçinin ingilis dilində qeyri-ixtisas fənləri öyrənən tələbələrin arasında belə yarışmaların keçirilməsini məqsədəuyğun hesab etmişdir.

Fakültənin dekanı, dosent Qurban Qurbanlı bilik yarışmasının məqsəd və vəzifələri haqqında məlumat vermişdir.

Püşkatmadan sonra informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bilik yarışmasına start verilmişdir. Universitetdə təhsil alan xarici tələbələr də viktorinada iştirak etmişlər.

On bir komanda arasında keçirilən yarışmaya 55 tələbə qatılmışdır. Tibb fakültəsinin komandası qalib gələrək I yerə çıxmış, beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin iki komandası isə II-III yerləri bölüşmüşlər. Qalib komandalar və fəal iştirakçılar diplom və hədiyyələrlə mükafatlandırılmışdır.

*Mehriban Sultan,*
*NDU-nun mətbuat şöbəsinin müdiri*

# ÖZƏL SƏHİYYƏDƏ MENECMENT

**_Ramiz Əliyev,_**
_Türk-Amerikan Tibb Mərkəzinin Baş həkimi,_
_tibb elmləri üzrə fəlsəfə doktoru_



_Ramiz Əsgər oğlu Əliyev 1973 - cü ildə Azərbaycan Tibb İnstitutunu bitirmiş, 1987-ci ildə Moskvada namizədlik dissertasiyası müdafiə etmişdir. 80-dən çox elmi məqalənin müəllifidir._

_1973-1980-ci illərdə Respublika Uroloji Xəstəxanasının hemodializ və böyrək transplantasiyası şöbəsinin, 1980-1984-cü illərdə Respublika Klinik Xəstəxanasının həkimi, 1984 -1992 - ci illərdə həmin xəstəxanada Azərbaycanda ilk nefroloji şöbənin təşkilatçısı və rəhbəri olmuşdur._

_1992-1993-cü illərdə Ankarada (Türkiyə) özəl Başkənt xəstəxanasının dializ şöbəsində məsul doktor, 1993-1994-cü illərdə Ankarada Beynəlxalq ECE Dializ Mərkəzində məsul müdüri,1995-1997-ci illərdə Türkiyənin ilk özəl "Sevgi" xəstəxanasının idari bölümündə məsləhətçi işləmişdir._

_1997-ci ildən Bakıda ilk özəl Türk-Amerikan Tibb Mərkəzinin təşkilatçılarından biri və baş həkimidir. 2002-ci ildən Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin üzvüdür._

_2006-2008-ci illərdə Xəzər Universitetinin müəllimi olmuşdur._

Son illərdə müstəqil Azərbaycan Respublikasında sürətli iqtisadi inkişaf əhalinin maddi rifahının yaxşılaşdırılmasına, bu isə öz növbəsində əvvəlki dövrlərə nisbətən insanların öz sağlamlığına daha ciddi yanaşmasına imkan yaradır. 30 dekabr 1999-cu ildə " Özəl Tibb Fəaliyyəti Haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul edildikdən sonra həm xarici və həm də daxili sərmayələrin müəyyən qismi özəl tibbi xidmətin inkişafına sərf edilməyə başladı.

Özəl səhiyyə sektorunda güclü rəqabət tibb xidmətinin təşkili (menecment, təchizat, kadrlar, marketinq, reklam və s.) məsələlərinin digər özəl xidmət sahələrindən fərqinin müqayisəsini və həlli yollarının seçilməsini tələb edir. Qeyd etdiyimiz problemlər haqqında Azərbaycan mətbuatında nəşrlərin də məhdudluğu bizim fikrimizcə özəl səhiyyədə menecmentin bəzi ümumi cəhətlərinə bir daha nəzər yetirilməsi əhəmiyyətli sayıla bilər..

Menecment (management) - bir elm kimi XX əsrin əvvəllərində ABŞ-da meydana çıxsa da, bu günə qədər dəqiq tərcüməsi (açıqlaması) yoxdur. Menecment – idarəetmə haqqında elm olaraq istehsalın effektivliyini artırmaq və daha yüksək gəlir əldə etmək məqsədilə idarəetmənin prinsipləri, metodları, vasitələri və formaları toplusudur. Amerika Menecment Assosasiyasının Prezidenti F. Eklinin fikrincə, menecment əşyaları deyil, insanları idarəetmə vasitəsidir. Maraqlı fakt odur ki, bu sahənin yaradıcılarından olan F.Teylor 1912-ci ildə ABŞ Konqresinə ilk "elmi idarəetmə" mövzusundakı məruzəsində nümunə olaraq tibbi klinikanın fəaliyyətindən bəhs etmişdir.

2008-ci ildə bir qrup mütəxəssislə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) təşkil etdiyi "Tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması" Proqramında iştirak etdik. Üç həftə davam edən bu proqramın əsas məqsədi Amerikada səhiyyə (dövlət, sığorta, özəl və s.) institutlarının tibbi xidmətin keyyfiyyətinin yüksəldilməsindəki vəzifələri ilə tanış etmək idi. Son illərdə ABŞ-da ümumiyyətlə səhiyyə təşkilatı sahəsində ən yaxşı praktik və statistik göstəricilərə nail olmuş Massachusetts ştatının (Boston və Worcester şəhərləri) səhiyyə departamentlərində, dövlət, universitet, özəl, sığorta, icma v.s. tibbi xidmət və təhsil müəssisələrində, peşəkar assosiasiyalarda və digər qeyri hökümət təşkilatlarında keçirdiyimiz görüşlərdə, səhiyyənin təşkili və menecmenti sahəsindəki aparıcı mütəxəssislərin mühazirələrində müsbət nəticələrə səbəb olan idarəetmə sistemi və üsullarının nəzəri və praktiki tərəfləri ilə yaxından tanış olmaq imkanımız da yarandı.

Azərbaycan və Türkiyədə səhiyyə və özəl tibbi xidmət sahəsində 30 ilə yaxin təcrübəmiz də imkan verir təsbit edək ki, özəl sektorda başqa sahibkarlıq fəaliyyətlərindən fərqli olan - peşə (tibbi), psixoloji, etik prinsiplərlə menecment prinsiplərinin bir-birinə ayrılmaz bağlı olan "tibbi menecment" adlanan yeni spesifik idarəetmə üsulu tətbiq edilməkdədir. Faktiki olaraq ümumi servisdən başqa həm də tibbi xidmətləri təmin edən bu menecmentin səviyyəsindən yalnız bizim sağlamlığımız deyil, həm də həyatımız asılıdır. Sərbəst iqtisadiyyatın inkişafının müasir dövründə özəl tibb müəssisələri sərmayə qoyuluşu, səhiyyənin özəllikləri və ilk növbədə peşəkar idarəetmə təhlili nöqteyi nəzərindən bir çox sahibkarlar üçün təhlil obyektinə çevrilmişdir.

Səhiyyədə menecmentin əsas məqsədi həkimlər və tibb işçilərinin birgə və effektiv işini təmin etməkdir. Görkəmli fransız filosofu-psixoanalitiki Mişel Fuko

“Klinikanın doğuşu” əsərində qeyd edirdi ki, həkim sərbəst peşə nümayəndəsi olaraq, xəstəlikdən əziyyət çəkənlərə kömək edərək, tarixən “özü üçün” çalışmaqdadır. Həkim psixologiyası bir başqası (sahibkar) üçün (azad olmadan) çalışan işçi statusunu qəbul edə bilmir. Ona görə də, əmək bazarında tibbi təşkilata rəhbərlik etmək istəyən qeyri-tibbi ali təhsilli menecerləri təəcübləndirən həkim davranışları müşahidə edilir. “İdeal klinika” axtarışında saysız “miqrasiyalar”, dövlət elmi-tədqiqat mərkəzləri və universitet həkimlərinin yeni, daha yaxşı təchiz edilmiş özəl klinikaya daimi işə keçmə ehtiyatlılığı, həkimlərin bağlı qapılar arxasında öz müayinələrinin müqabilində pasientlə birbaşa sövdələşmə istəyi, bahalı avadanlıq və cihazların köməyi ilə öz qohumlarını kassadan kənar və ya pulsuz müayinə etdirmə təşəbbüsləri, “ulduz xəstəliyi”, ənənəvi kontrakt formalarından yayınma və s. buna nümunədir. Bir çox klinikalarda həkimlər açıq şəkildə mühasibat, icraçı direktor, informasiya texnologiyaları mütəxəssisi və s. bu kimi “əlavə şəriklərinin” sayının çoxluğundan şikayətlənərək, şirkətə qazandırdıqları pulun haraya sərf edildiyini və aldığı məvacibin müayinədən gələn pulun 1/3-indən yuxarı olmadığının səbəblərini axtarır, müdiriyyətə inamsızlıqlarını bəzən açıq şəkildə bildirirlər. Bəzi müayinə (rentgen-radioloji, laboratoriya, ultrasəs və s.) mütəxəssislərinin öz müayinələrinin nəticələrinə digər “yorumlar” əlavə etməsi, digər (tibb bacısı, texniki və ya qeydiyyat) işçilərin müayinə və müalicə üçün xəstəyə “tövsiyyələr” verməsi müşahidə olunur. Yuxarıda qeyd olunanlar qısa bir zamanda tibb müəssisəsinin daxilindəki intizamın zəifləməsində, müəssisənin nüfuzunun azalmasnda, ümumi fəaliyyətinin digər mənfi nəticələrində əks olunur.

Klinikadan bilik, təcrübə, sertifikat və pasient bazası əldə edən həkimlər, üzərlərində ciddi nəzarət hiss edən kimi digər bir müəssisəyə üz tutur, onların yerinə 5-6 aylığına başqaları gəlir və bu hadisə yenidən dəfələrlə təkrarlanır. Bəzi pasientlər ömrü boyu “öz həkimlərinin” axtarışında olduğu kimi, bəzi həkimlər də zamanlarının böyük bir hissəsini daima “öz klinikalarını” tapmağa sərf edirlər.

Menecerin ən yaxşı xüsusiyyətlərindən biri başçılıq etdiyi klinikanın həkim və digər işçilərinin öz güclü tərəflərini maksimal dərəcədə tətbiq etmək imkanı yaratmaqla və buraxdıqları nöqsanlarını neytrallaşdırmaqla onların kollektiv və effektiv işini təmin etməkdir. Uğurlu səhiyyə sisteminin ən böyük “sirri” həkimin pasientlə davranış bacarığı və keyfiyyətli müasir tibbi xidmət göstərməsindədir. Tibb müəssisəsinin kommersiya müvəffəqiyyətinin “açarı” isə sahibkarın seyfində deyil, klinikaya müraciət etmiş pasientlə müayinə və müalicə olunduğu “həkim otağındadır”.

Özəl tibbi xidmət sektorunda gəlir mənafeyi ilə keyfiyyətli tibbi xidmət məsələləri daima qarşı-qarşıya gəlməkdədirlər. Tibbi etik, deontoloji və peşəkar prinsiplərdən yetərsiz, tez və çox qazanmaq hərisliyində olan bəzi həkimlərin qəbuluna düşən pasientlər müxtəlif arzuolunmaz hadisələrlə qarşılaşırlar. Hansı pasient stasionara gətirilən hər xəstə müqabilində hədiyyə alan təcili yardım həkiminin “qurbanına” çevrilmək və ya farmakoloji şirkətlərin “sponsorluğunda” təyin edilən, lakin heç də hamısı ona lazım olmayan dərmanların reseptini almaq istəyər? Çox vaxt həkimə inamın itirilməsi, hətta ən “ideal klinikaya”, onun şöhrətinə etibarın itirilməsinə səbəb olur və belə biznes sahəsində uğurla fəaliyyətə başlayan müəssisə həkimin “girovuna”çevrilərək, iflasa uğramaq təhlükəsi altına düşür.

Özəl səhiyyə sahəsindəki menecer nəinki sərmayədarların, həm də öz potensial pasientlərinin qarşısında məsuliyyət daşıyır. Ona görə də, hələ yeni tibb biznesini layihələndirərkən klinikanın əsas ideologiyasını, dəqiq, ətraflı və asan başadüşülən əsas vəzifəsini (missiyasını) təyin etmək lazımdır. Bəlkə də mağaza və ya restoran üçün missiyanın olmaması ticari bir nöqsandır. Klinikanın missiyasının olmaması isə onu sabit ştatlı yüksək ixtisaslı mütəxəssislərin fəaliyyət göstərdiyi səhiyyə təşkilatı əvəzinə əsasını pullu pasientlər hesabına gazanmaq istəyən, bir neçə yerdə çalışan “səyyar - həkimlər” toplusu təşkil edən “ticarət obyektinə” çevirə bilər ki, bu da birbaşa insan sağlamlığı üçün təhlükəlidir. Bəzən pasientlər yaxşı təmir və təchiz olunmuş, hər gün reklam edilən klinikaya gəldikdən sonra orada xəstə hüquqlarının kobud pozulması, keyfiyyətli tibbi xidmətlərin olmamasının şahidi olurlar. Burada yalnız onlara lazım olan müayinə və müalicələrin təyinatına inam hissi azalır və bu ilk baxışdan gözəl görünən divarlar arxasında sadəcə müraciət edən şəxslərdən bol gəlir əldə etmək istəklərinin “gizləndiyi” təsəvvürü yaranır.

Qeyd etmək lazımdır ki, hələ də özəl tibbi xidmət sahəsində ümumi idarəetmə standartları tam formalaşmamışdır. Mövcud klinikaların idarəetmə modelləri bir-birindən fərqlənməkdədir. İdarəetmə strukturunu təşkil edərkən sahibkarlar müxtəlif analoqlardan- a) dövlət müalicə-profilaktika müəssisələrindən, b) klinikaların qərb modelli idarə olunmasından, c) digər özəl xidmət müəssisələrindəki modellərdən və s.- dən istifadə edirlər. Bəzi böyük çoxprofilli klinikalarda baş həkimin və direktorun funksiyaları bir-birindən ayrılmışdır. Biznes-yalnız biznesdir, pasientlərin həyat və sağlamlıqlarının məsuliyyəti isə yüksək dərəcəli tibb mütəxəssisinin üzərində olmalıdır.

Çox vaxt özəl klinikaya tabeçiliyində bütün tibbi məsələlərə cavabdeh baş həkimi olan, özünün isə tibbi təhsili olmayan baş direktor rəhbərlik edir. Adətən onlar öz müəssisələrinin missiyasını yalnız iqtisadi səmərəlilik nöqteyi-nəzərindən formalaşdırmağa çalışırlar. Belə müəssisənin bütün məsuliyyətinə cavabdeh olan şəxs rəhbərlik etdiyi tibbi biznesin peşə xüsusiyyətlərini bilmədiyindən, ümumi iş prosesinə ziyan vuran, düzgün olmayan qərarların qəbulu riskləri də artır. O bəzən yaxın əhatəsindəki (bəzən də kənardan) tibb aləminin qeyri-peşəkar informasiyalarının təsiri altına və ya ondan asılı vəziyyətə düşür. Bu tip müdirlərdə “hər şeyi yalnız onların yaxşı bildikləri” təsəvvürü hakim olduğu üçün, onlar əlavə ümumi tibbi biliklər əldə etmək haqqında heç

düşünmürlər. Özəl təşəbbüsün yarandığı ilk zamanlarda menecmentin əsaslarını bilən tibb mütəxəssislərinin sayı az olduğundan bu tip “qeyri tibb işçisi-menecerin” təyinatı variantı geniş yayılmışdı. Bu modelin bir paradoksal cəhəti ondadır ki, idarəetmə prosesində direktorun yoxluğu əsas fəaliyyətdə o qədər də mənfi əks olunmur və lazım gəldikdə baş həkim onun təsərrüfat funksiyalarını üzərunə götürə bilir. Amma baş həkim müvəqqəti də olsa işə çıxmadıqda klinikanın fəliyyətinin dayanması təhlükəsi yaranır. Təsərrüfatçı-direktor heç bir halda baş həkimin funksiyalarını öz üzərinə götürə bilməz. Digər tərəfdən özəl səhiyyə müəssisəsinə rəhbərlik etmək üçün yalnız tibb təhsili almaq da kifayət deyil. Həkim-klinisistlərin təşkilatçılıq, idarəetmə, iqtisadiyyat və hüquq sahələrində biliklərinin yetərsizliyi tibb müəssisəsinin səmərəli fəaliyyətinə yönəlmiş ixtisaslı idarəetmə qərarları qəbul edilməsində ciddi maneə ola bilər.

Adətən təcrübəli və cox sayda pasientə malik, əla mütəxəssis olan həkim də “öz peşəkar biznesini genişləndirərkən” çətin maneələrlə üzləşir: həmfikirlərindən ibarət çalışqan və mehriban kollektiv formalaşdıra bilmlr, daima tərəfdaşları və investorları ilə münaqişə edir, getdikcə işgüzar əlaqələrini və pasientlərlə yaxşı münasibətlərini itirir. “Naməlum” səbəblərdən müəssisənin iqtisadi göstəriciləri pisləşir, pasientər rəqib klinikalara üz tutur, yaxşı mütəxəssislər işdən azad olaraq, sərbəst fəaliyyətə başlayırlar. Səhiyyə sahəsindəki belə kiçik müəssisələrin 25-35%-i fəaliyyətlərinin ilk üç ilində müflisləşiməyə yuvarlanırlar. İlk baxışda buna müxtəlif (maliyyə resurslarının yetərsizliyi, kənar səbəblər, rəqiblərin güclənməsi və s.) səbəblər göstərilsə də dərindən təhlil kadrlarla, tərəfdaşlarla və pasientlərlə münasibətdəki nöqsanların nəticəsini sübut edir.

Həkim-sahibkar 10-15 nəfərlik personalı olan sadə təşkilat strukturuna təkbaşına nəzarət edə bilər. Fəaliyyət həcmi artdiqca böyük klinika rəhbərləri inkişaf edən müəssisənin effektiv idarəolunması prosesində müəyyən problemlər ilə üzləşirlər. Şirkətlərin böyük əksəriyyətində biznesin həcminin artması idari strukturun mürəkkəbləşməsinə (müxtəlif yönlü formal nəzarət prosedurlarının tətbiqi, ştata müdir müavini, kadrlar üzrə mütəxəssis, iqtisadçılar, kompüter idarəetmə sistemi mütəxəssislərinin əlavə olunması, digər xidmət növlərinin genişlənməsi və s.) gətirib çıxarır. Biznesin sahibi eyni zamanda müalicə həkimidirsə bu etapda o tədricən həkimlik praktikasından uzaqlaşaraq inzibatçıya çevrilir. Şübhəsiz, ki, sərbəst fəaliyyət göstərən həkimin təsisçisi olduğu və onun səyləri nəticəsində böyük şirkətə çevrilən bu biznesdə onun funksiyaları kökündən dəyişir. İşin başlanğıcında o şəxsi resursları hesabına zəruri qərarlar qəbul etməklə və öz peşəkar əməyi ilə pasientlərin ehtiyaclarını ödəməyə çalışır. Şirkət inkişaf etdikcə vəziyyət dəyişir; fəaliyyət həcmi artdıqca personalın sayı artır, əməyin bölünməsi baş verir. Mühasibat uçotu, maliyyə, marketinq, müqavilələrin hüquqi qeydiyyatı və s. ayrı-ayrı istiqamətlərə ehtiyac yaranır. Müalicə biznesinin diverfikasiyası baş verir - əsas tibbi fəaliyyətə “bazarın” tələb etdiyi xidmətlər əlavə olunur.Nəticədə biznesin əsasını qoyan-sərbəst fəaliyyət göstərən həkim müəssisənin sahibinə, müdürünə və onun idari funksiyalarını yerinə yetirən baş menecerinə çevrilir. Bu üç funksiyanın bir şəxsdə birləşməsi tibbi və idarəetmə biliklərin təkmilləşməsinə, pasientlərin istəklərinin daha yaxşı yerinə yetirilməsinə yönələn biznesin inkişafının daimi motivasiyasını tələb edir.

Tibbi biznesin təşkilatçılarının əsas uğursuzluqlarının səbəblərindən biri də müəssisənin fəaliyyətinin strateji məqsədlərini təyin edə bilmək və qarşıdakı məqsədlərə doğru daima irəliləmək bacarıqsızlığıdır. Lokal və taktik planlar da biznesin ümumi strategiyası axarına daxil olmalıdırlar. Yeni yaranmış müəssisənin sahibinin daim maariflənmək, yeni idarəetmə (əməyin təşkili və korporativ mədəniyyət və s.) formaları və qabaqcıl marketinq ( “4P”, digər kreativ və s.) modellərini geniş tətbiq etmək təşəbbüsləri tibbi biznesin rəqabət qabiliyyətliliyinin və inkişafının yüksəlməsinin mühüm amilləridirlər. Səhiyyə sektorunda biznes təşkilatçılarının yalnız tibbi təhsillərinin olması kifayət deyil, onlar menecment sahəsində də bilik və bacarıqlarını günün tələblərinə uyğun operativ surətdə artırmalıdırlar.

Son zamanlar özəl təşəbbüsün bu spesifik sektorunda vəziyyət dəyişməkdədir. Bir çox həkimlər menecment sahəsində əlavə təhsil alır, xarici ölkələrin özəl klinikalarında təcrübə qazanır və hətta MBI dərəcələrinə yiyələnərək, öz müəssisələrinin missiyasını öncə tibbi, ondan sonra isə iqtisadi mənfəət yönündən formalaşdırmağa çalışaraq, bu spesifik strukturu daha sistemli idarə etməyə çalışırlar. Bu səbəbdən böyük klinikaya rəhbərliyə səhiyyə təşkilatçısı ixtisası qazanmış, ən azı 5 il özəl tibb müəssisəsinə başçılıq etmiş (işləmiş) peşəkar həkimin təyinatı daha məqsədəuyğun sayıla bilər. Baş həkimin peşəkar təbabətdən əlavə menecment qaydalarını yaxşı bilməsi klinikanın fəaliyyətinin keyfiyyətinin xeyli yaxşılaşdırılması ilə paralel daha rentabelli işləməsinə səbəb olur. Təəssüf ki, əmək bazarına nəzər salsaq hələ də tibbi baza təhsili ilə yanaşı səhiyyə təşkili və iqtisadiyyatını yaxşı bilən, ümumiyyətlə səhiyyədə menecmentin xüsusiyyətlərini yaxşı başa düşən, özəl tibb müəssisəsinə başçılıq təcrübəsi olan klinika rəhbərlərinə az rast gəlirik. Səhiyyə biznesindəki sahibkar üçün belə menecerin özəl klinikaya rəhbərliyi böyük uğur sayıla bilər. Bizim ölkəmizdə bu sahədə ixtisaslaşan ciddi və peşəkar məktəb hələ mövcud deyil. Tibbi menecment üzrə təşkil olunan bəzi qısamüddətli kurslar isə yalnız predmetin müstəqil və dərindən öyrənilməsinin istiqamətlərini təyin etmək imkanı yaradır.

Klinika rəhbərinin daha bir mürəkkəb məsələsi də əsas hədəfi qoyduğu sərmayədən tez mənfəət əldə etmək istəyən investorlar ilə münasibətlərindədir. Menecment nəzəriyyəçilərindən F.Teylorun pastulatına görə öz fəaliyyətlərində sahibkar mənfəət, menecer isə inkişaf kateqoriyalı düşüncəyə əsaslanırlar. Çox zaman

gəlirin qazanılma yolları bu sərmayədarları maraqlandırmır. Mənfətəin maksimallaşdırılması naminə sərhəd aşılaraq, avadanlığın yenilənməsi və təmirinin keyfiyyətsiz aparılması, birdəfəlik tibbi alət v avadanlıqların təkrar istifadəsi, istismar texnologiyalarının pozulması, müalicə sxeminin sadələşdirilməsi və s. nəticəsində tibbi xidmətlərin keyfiyyətinin aşağı düşməsi müşahidə oluna bilər.

Tibbi biznesin inkişafının ilk illərindəki problemlərdən biri də şirkətin qurucuları arasında "dəyişən münasibətlərdir". Adətən mübahisə və konfliktlər müəyyən zamandan sonra biznesin inkişafının strateji yollarının təyini, vəzifə bölgüsü, kadrların təyinatı ilə əlaqədar ortaya çıxır. Səhmdarlardan bəziləri bu etapda müəssisəni tərk edərək, öz şirkətini qurur. Lakin bir qədər keçdikdən sonra menecment və təşkilati inkişaf problemləri yenidən onların qarşısında peyda olur. Biznesin uğurla idarəolunması məsələləri getdikcə inkişaf edən tibb strukturları qarşısına da çıxır. Pasientlərin sayının durmadan artması nəticəsində müəssisənin fiziki imkanlarının tükənməsi tibbi biznes təşkilatçıları qarşısında mövcud müəssisə çərçivəsində fəaliyyətin genişləndirilməsi (binanın sahəsinin artırılması hesabına, filialların açılması və s.) məsələsini qaldırır. Seçilmiş variantlardan hər biri təşkilati və idari strukturların mürəkkəbləşməsini, korporativ menecmentin təkmilləşməsini tələb edir.

Müasir klinikanın meneceri müəssisənin fiziki, texnoloji inkişafı ilə bərabər orada çalışan həkim və digər işçilərinin peşəkarlığının artıra bilməsinə də imkan yaratmalıdır. Digər sahələrdən fərqli olaraq elmi-texniki tərəqqi təbabətdə daha tez tətbiq olunaraq diaqnostika, müalicə, reabilitasiyanın texnologiyasının daima dəyişməsini tələb edir. Bu səbəbdən yeni texnologiyalar haqqında həmişə məlumatlı olmaq və ən müasir və mükəmməl olunanını operativ tətbiq etmək vacibdir. Tibb biznesində qabaqcıl texnolojini izləmək-rəqabət üstünlüyünün ən vacib faktorlarından biridir. Çünki, pasient diaqnostika və müalicə sahəsində ən yaxşılarını axtarır və seçir. Həkimlərin fasiləsiz təlimi klinikanın daxilində təkmilləşmə sistemini qurmağa vadar edir. Bu isə başqa sahələrdə olduğu kimi menecerin strateji vəzifələrinə daxil olmasa da, səhiyyə sektorunda günün tələbidir.

Özəl klinikanın idarə olunmasında əsas vəzifələrdən biri də müəssisənin marketinq proqramının formalaşması və həyata keçirilməsində praktik olaraq bütün tibb işçilərinin iştirakını təşkil etməkdir.. Tibbi xidmətlərin marketinq sisteminin əsas subyektləri həkim və pasientdir. Bu subyektlərin marketinq münasibətləri çərçivəsindəki davranışları onların hər birinin spesifik xüsusiyyətlərini təyin edir. Həkim tibbi xidmətlərin istehsalçısı, pasient bu xidmətlərin istehlakçısıdır. Tibbi marketinq-xidmətlərin İstehsalçıdan (həkim, tibb işçisindən) İstehlakçıya (pasientə) ötürülməsini planlaşdıran, təşkil və reallaşdırılmasını idarə edən kompleks sahibkarlıq fəaliyyətidir. Özəl tibb müəssisəsinin əsas işi cari və perspektiv istehllakçı tələblərinin kəmiyyət və keyfiyyət xassələri əsasında ehtiyac olunan tibbi xidmətin yüksək keyfiyyətlə, tələb olunan miqdarda, lazıımi yerinə, müvafiq qiymətlərlə çatdırılmasını təşkil etməkdir.

Tibbi xidmət biznesin ən çox "tənzim olunan" (çox ciddi sanitar-epidemioloji rejim, dərmanların saxlanması şəraiti, personalın, avadanlığın və texnologiyanın sertifikasiyası, yanğınsöndürmə normaları və s. tələb olunan) lisenziyalı fəaliyyət növlərindən biridir. Əbəs deyil ki, bir sıra çoxprofilli klinikalar bu məsələlərin böyük əhəmiyyətini anlayaraq yalnız bu işlə məşğul olan mütəxəssis ayırırlar. Özəl müəssisədə göstərilən tibbi xidmət həm də pasientlər qarşısında böyük məsuliyyətdir. Müasir pasientlər hazırda öz hüquqlarından yaxşı xəbərdardırlar və bunlara riayət olunmasını tələb edirlər. Bu da nəinki rəhbərlikdən, həm də hər bir həkimdən və tibb bacısından tibbi xidmət zamanı bütün hüquqi normalara əməl olunmasını tələb edir. Müvafiq qanunvericiliyə görə göstərilən tibbi xidmətlərin məsuliyyətini hüquqi şəxs daşıyır. Ona görə də öz işçilərinin bütün "günahlarına" cavabdehlik daşıyan müəssisədir, qanun və növcud direktivlərin cüzi pozulması onun özəl tibbi xidmətlə məşğul olmaq lisenziyasının ləğvi təhlükəsini artırır.

Tibb müəssisələrinin vacib bir problemi bu sahədə göstərilən xidmətin keyfiyyətinin qiymətləndirilməsinin düzgün kriteriyalarını seçməkdir. Klinikanın işinin effektivliyini ölçmək o qədər də asan məsələ deyil. Keyfiyyət nəzarəti və personalın motivasiya sistemini qurmaq təşkilati cəhətdən deyil, daha çox göstərilən tibbi xidmətin spesifikliyindən asılıdır. Son illər bütün dünyada qəbul edilən müayinə və müalicə protokollarındakı sübutedici təbabət prinsipləri və standartları həkimlərin tibbi xidmət sahəsindəki işini daha obyektiv qiymətləndirməyə qismən imkan verir. Diaqnostika və müalicədəki mövcud standartlar tibbi nəticə və maliyyə xərclərinə görə optimal üsullar seçməyə imkan yaradır və müasir özəl müəssisədə göstərilən tibbi xidmətlərin keyfiyyəti menecment fəaliyyətinin nəticəsi ilə birbaşa əlaqədə olur.

Özəl klinikalarda menecmentin xüsusiyyətlərinin qısa xülasəsini yekunlaşdırarkən, bir daha vurğulamaq lazımdır ki, bir çox sərmayə darlar başa düşməyə başlamışlar ki, tibb müəssisəsini tikmək və təchiz etmək nə qədər çətin və bahalı olsa da, işin ən sadə hissəsidir. Müasir sahibkar üçün ən mürəkkəb vəzifə – sektorda ənənəvi dövlət və çoxsaylı özəl klinikaların mövcudluğuna baxmayaraq, yüksək standartlara cavab verən müasir diaqnostik, müalicə və reabilitasiya texnologiyalar tətbiq edilən, pasientlərin rəğbətini və inamını qazanaraq, təhlükəsiz və keyfiyyətli tibbi xidmət sayəsində onların etibarlı və zəmanətli məkanına çevrilən, vahid komanda halında fəaliyyət göstərən həkim və digər tibb işçiləri kollektivinə malik tibb mərkəzi yaratmaqdır. Tibbi xidmətin yüksək keyfiyyəti və təhlükəsizliyi, müalicə nəticələrinin effektivliyi və həm də iqtisadi göstəricilərin artması belə komandanın müsbət fəaliyyətinin nəticəsi olaraq sahibkarlığın səhiyyə sektorunun hələ də mənfəətcə aktual və cəlbedici olmasına nümunədir.

## UKRAYNADA HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN DİLİ VƏ MƏDƏNİYYƏTİ MƏRKƏZİ

*ARDNŞ-nin köməyi ilə Kiyev Milli Linqvistika Universitetində Heydər Əliyev adına Azərbaycan dili və mədəniyyəti mərkəzi açılmışdır*



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Ukraynadakı nümayəndəliyi mərkəzi lazımi avadanlıqla, o cümlədən Azərbaycan dilinin öyrənilməsi üçün ən son linqafon və multimedia avadanlıqları ilə təmin etmişdir. Açılış mərasimində qeyd olunmuşdur ki, Azərbaycan dilini bilən mütəxəssislər Ukraynanın əmək bazarında yüksək qiymətləndirilir, çünki burada bir çox Azərbaycan şirkətləri fəaliyyət göstərir.

Qeyd olunmuşdur ki, Azərbaycan dili və mədəniyyəti mərkəzi təkcə tələbələrin məşğul olması üçün müasir təlim auditoriyası rolunu oynamayacaq, o, həm də Azərbaycan biznes dairələrinin nümayəndələrinin tələbələrlə görüş yerinə, Ukrayna və Azərbaycan universitetləri arasında tələbə mübadiləsi üçün platformaya çevriləcəkdir.

## STANFORD UNİVERSİTETİNİN MUSİQİ FAKÜLTƏSİNDƏ YENİ KURS

*Bu ilin aprel ayından etibarən Stanford Universitetinin musiqi fakültəsində Azərbaycan musiqisi və mədəniyyəti kursu açılmışdır*



Stanford Universiteti incəsənət və humanitar elmlər üzrə dünya universitetləri arasında ilk yeri tutur. “Odlar Yurdunun musiqisi” adlanan kurs Stanford Universitetinin tarixində Azərbaycan musiqisinin tədrisinə həsr olunmuş ilk kursdur.

Azərbaycan musiqisi və mədəniyyəti kursu mahir kamança ustası, hazırda San-Fransisko şəhərində yaşayan həmvətənimiz İmamyar Həsənov tərəfindən tədris edilir. Stanford Universitetinin məzunu, Azərbaycan mənşəli amerikalı Kristal Barqeleym isə kursun nəzəri aspektlərinin tədrisində İ.Həsənova yardım edir.

Kurs ərzində Stanford Universitetinin tələbələri Azərbaycanın zəngin musiqi mədəniyyətinin, xüsusilə muğamlarımızın həm praktik, həm də nəzəri aspektlərini mənimsəyəcək, kamança və digər musiqi alətlərində Azərbaycan mahnılarını ifa etməyi öyrənəcəklər.

Kursun sonunda tələbələrin nəzəri imtahanı ilə yanaşı, yekun imtahanı olaraq, universitetdə Azərbaycan musiqisinə həsr olunmuş geniş konsert proqramı ilə çıxış etmələri nəzərdə tutulmuşdur.

***Yusif Babanlı,***
***AzərTAc***
***Vaşinqton***

## KRALİÇA NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNDƏ

*İsveç kraliçasıt Silviya Küveytə rəsmi səfəri zamanı aprelin 15-də bu ölkədə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nümayəndələri ilə görüş keçirib*



Görüş zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyətinin üzvü Farida Allagahi Əlahəzrət Kraliça Silviyaya qurumun fəaliyyəti və mayın 6-8-də Azərbaycanda təşkil olunacaq Cənubi Qafqaz Forumu haqqında geniş məlumat verib.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, kraliça Nizami Gəncəvi haqqında məlumatların onun üçün maraqlı olduğunu vurğulayaraq, dahi şairin adını daşıyan mərkəzin Cənubi Qafqaz Forumunun təşkilindəki uğurlarına görə xüsusi təbriklərini çatdırıb və bu sayda önəmli insanın bir araya gəlməsini böyük nailiyyət kimi qiymətləndirib. Kraliça Silviya xüsusi olaraq Qlobal Liderlər Alyansının yaradılması təşəbbüslərini alqışlayıb və belə bir vacib qurumla gələcək əməkdaşlığında maraqlı olacağını qeyd edib.

Azərbaycanla İsveç arasında tarixi köklərə söykənən əlaqələrdən də söhbət açan İsveç Kraliçası bu münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Nizami Gəncəvi Beynəlxaq Mərkəzinin iki ölkənin mədəni əlaqələrinin inkişafında vacib rol oynayacağını bildirib. Küveytdə keçirilən görüş zamanı kraliça Silviyaya Nizami Mükafatı da təqdim edilib.

## NOBEL MÜKAFATÇISININ YENİ KİTABI

*Tanınmış yapon yazıçısı Haruki Murakaminin üç illik fasilədən sonra yazdığı yeni kitabı əsl ajiotaja səbəb olub*



Milli.Az Rusiya mətbuatına istinadən xəbər verir ki, özlərini "harukiçi" və ya "murakamiçi" adlandıran pərəstişkarlar bu kitabı yeni eranın başlanğıcı kimi qiymətləndiriblər.

20 mindən çox adam yeni kitabı almaq üçün Amazon portalında qeydiyyatdan keçib.

Kitab mağazalarından birinin işçisi isə RİA Novosti-nin əməkdaşına bildirib ki, İnternetdə sifariş verməyi çatdırmayan insanlar səhər tezdən mağazanın qarşısında növbə gözləyirlər ki, kitabı ala bilsinlər.

## "İMADƏDDİN NƏSİMİ. BİBLİOQRAFİYA" KİTABI NƏŞR OLUNMUŞDUR




"Elm və təhsil" nəşriyyatında "İmadəddin Nəsimi. Biblioqrafiya" kitabı çapdan çıxmışdır. AMEA-nın Əlyazmalar İnstitutundan AzərTAc-a bildirmişlər ki, yeni kitaba Nəsimi əsərlərinin əlyazmaları, müxtəlif dillərdə nəşr edilmiş ədəbi irsi, həyat və yaradıcılığının tədqiqinə həsr edilmiş monoqrafiya və məqalələr barədə məlumatlar daxil edilmişdir.

"İmadəddin Nəsimi. Biblioqrafiya" kitabı dahi şairin zəngin poetik irsinin tədqiqatçıları, klassik poeziyanı tədris edən müəllimlər və ədəbiyyat həvəskarları üçün mühüm mənbədir.

# FOCUSING ON KEY ASPECTS OF ENGLISH LANGUAGE TEACHING

*Gamidova L.M.*
*Senior teacher*
*Departmens of English Language*
*& Literature*



Almost all countries nowadays are linked to social, cultural and economic realities throughout the world. To study languages today means to gain essential preparation for the future. The role of the English language is crucial in this respect. Possession of knowledge of English is a requisite for people who wish to participate in the global community.

Teaching English today poses challenges to people who have embarked on this profession. They are expected not only to instruct but also to educate students to enhance their linguistic and cultural awareness.

The study of English not only fosters understanding of the intellectual, cultural, and historical heritage of other nations, but these studies may also result in learners' better understanding of their native language or languages and culture.

What is important for teachers of English to bear in mind if they want to meet the challenges of today?

First of all, teachers must display a sound knowledge of the language systems they teach: sound system, structure, and the rules by which words are formed, the ways that phrases, clauses and sentences are structured. They must also be familiar with the communicative functions of language and the ways language varies depending on the context.

Secondly, teachers should realize the importance of comparing English with students' native language systems. The attention of students should be focused on the similarities (if any) and differences between the target and their native language. Such awareness will encourage students to gain more confidence when “switching” from one language into another and reach their linguistic and communicative goals.

Thirdly, teachers must be sensitive to the cultural distinctions, religious affiliation and backgrounds of their students. It is also very important to take into account materials, topics and types of activities and interactions within the classroom environment to ensure that each student becomes an important member of the class.

Materials on contemporary and ancient cultures, social issues, current events, religion, sports, music, the arts, history, folk tales, travel, etc., adapted to students' level of language proficiency, will develop and improve their analytical thinking as well as linguistic competence.

Last but not least, accomplished teachers are expected to remember that some of their students are highly analytical, highly visual, or they rely on their ability to imitate and reproduce the language they hear. Teachers have to plan and adapt content and class activities to suit all types of learners and to further motivate them in achieving their educational and linguistic goals.

It teachers establish a stimulating and supportive

classroom environment, it will encourage all learners to participate in lively, vital and meaningful discussions on the materials and content taught.

It is worth mentioning that the profession of teaching languages is interdisciplinary in nature. Through leaning a language, people acquire knowledge or familiarity with other disciplines. Those competent in other languages and familiar with other cultures will be more eligible for occupations, challenging positions and educational opportunities abroad. The advantage of the English language for such situations is unchallengeable; hence, the importance of teaching English as a profession.

**English Through Laughter**

Laughter is believed to be the best healer. It can boost your mood and health. It is said that laughing 100 times equals 10 minutes of running because it makes muscles work.

Can laughter help learn things?

I am sure it can.

If laughter can boost our health, then why not try to boost our thinking and memorizing ability through laughter?

The passage and exercises that follow will prove that language is better learned if we are relaxed and happy. Moreover, it will not take you a lot of time to learn what is in the passage and exercises and then assume one of the roles to relate the story as it might be told (or written) by one of the characters.

So, it is never too late to laugh!

**Read, Laugh, Exercise, Write and Speak:**

An annual high-school faculty party was being held at a popular restaurant.

By late evening waiters looked dead on their feet. One of the teachers told a waiter to pull up a chair. "Are all you folks teachers?" the young man asked.

"Why, yes," he replied. "What makes you ask?"

"I never waited on a group like this before," he said. "Every time one of you wants something, you raise your hand."

**I. Answer the questions:**

1.What was being held at a popular restaurant?
2.What did waiters feel like by late evening?
3.What did one of the waiters ask one of the teachers when he told him to pull up a chair?
4.How did the waiter guess that all people there were teachers?

**II. Complete the sentences:**

1.A high-school faculty gathered for ______________________________

2.One of the waiters guessed that ______________________________

3.The group at the restaurant was very particular because ______________________________

**III. Match the following words with their definitions**

1.annual
a) weary; lifeless
2.hold
b) a man or a woman who waits on table
3.popular
c) recurring or done every year
4.waiter d) people of a specified group or kind
5.dead
e) lift
6.folks
f) widely liked or appreciated
7.raise
g) assemble

**IV. Complete this story in any way you like**

**V. Retell this story as it might be told by:**

A) One of the faculty
B) one of the waiters

For A

begin like this: We, teachers, are really very specific people.It is not difficult to guess what our occupation is.

Once ------------------------------------------------

For B

begin like this: Teachers are really very specific folks.

Once I was waiting on a group and every time they ----------------------------------------------------

With exercises like this one, teachers can learn to make English classes entertaining and easy to remember for their students.

# AZƏRBAYCAN DİLİNİN QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ZAMANIN TƏLƏBLƏRİNƏ UYĞUN İSTİFADƏSİNƏ VƏ ÖLKƏDƏ DİLÇİLİYİN İNKİŞAFINA DAİR DÖVLƏT PROQRAMI

*Azərbaycan Respublikası Prezidentinin*
*2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## 1. Giriş

Bu gün Azərbaycan dilinin milli dövlətçiliyin başlıca rəmzlərindən olaraq istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir.

Respublikada dil siyasətinin birmənalı şəkildə formalaşdırılması, ana dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək milli həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolu və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Müstəqil Azərbaycanın 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli 506 nömrəli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli 552 nömrəli fərmanları, eləcə də "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində normativ hüquqi aktlar, həmçinin digər tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" 2004-cü il 12 yanvar tarixli 55 nömrəli və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli 56 nömrəli sərəncamlarına əsasən latın qrafikalı yeni Azərbaycan əlifbası ilə dərsliklərin, elmi əsərlərin, lüğətlər və bədii ədəbiyyat nümunələrinin çap olunaraq istifadəyə verilməsi milli ədəbi dilin daha da zənginləşməsi ilə yanaşı, dilçiliyin əsaslı inkişafı baxımından da əhəmiyyətli olmuşdur.

Eyni zamanda, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi, o cümlədən dilçilik elminin müxtəlif sahələri üzrə yüksəkixtisaslı kadrların hazırlanması dövrün tələbi olaraq qalır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 2012-ci il 23 may tarixli 2236 nömrəli və "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli 2240 nömrəli sərəncamları ölkədə dil siyasətinin uğurla həyata keçirilməsində mühüm fəaliyyət sənədləridir. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) həmin sərəncamlardan irəli gələn məsələlərin həllinə yönəlmişdir və 2013–2020-ci illər ərzində bu istiqamətdə zəruri tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

## 2. Dövlət Proqramının məqsədi

Dövlət Proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin etməkdir.

## 3. Dövlət Proqramının əsas vəzifələri

3.1. Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması;

3.1.2. dilçilik sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təkmilləşdirilməsi;

3.1.3. dünya dilçilik elminin müasir inkişaf meyillərini nəzərə almaqla, elmi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

3.1.4. dilçilik sahəsində dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlığın inkişaf etdirilməsi;

3.1.5. dilin inkişafı və tədrisi məsələlərinin uzlaşdırılması və təkmilləşdirilməsi;

3.1.6. dilçi alimlərin müasir informasiya və kommunikasiya texnologiyalarının yaradılmasında iştirakının təmin edilməsi;

3.1.7. dil (ədəbi dil) və mədəniyyət tarixinin daha əsaslı tədqiqini təmin etmək üçün qədim dillərin tarixinin öyrənilməsi;

3.1.8. dilin inkişafını və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi;

3.1.9. dil və nitq mədəniyyətinin yüksəldilməsi;

3.1.10. Azərbaycan dilinin lüğət tərkibinin və qrammatik normalarının sistemləşdirilməsi;

3.1.11. Azərbaycanda dil situasiyalarının və dil əlaqələrinin öyrənilməsi.

## 4. Gözlənilən nəticələr

4.1.Dövlət Proqramının yerinə yetirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

4.1.1. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və ölkədə dilçiliyin inkişafının dövlət səviyyəsində təmin olunması;

4.1.2. dünya dilçilik elminin müasir inkişaf meyilləri nəzərə alınaraq, Azərbaycan Milli Elmlər Akademiyasında və respublikanın digər elmi müəssisələrində, ali məktəblərində aparılan fundamental və tətbiqi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

4.1.3. dilçiliyin inkişafı sahəsində fəaliyyət göstərən elmi müəssisə və qurumların maddi-texniki bazasının möhkəmləndirilməsi;

4.1.4. Azərbaycan dilinin və dilçilik elminin inkişafı ilə bağlı qısamüddətli və uzunmüddətli kompleks elmi proqramların işlənilib həyata keçirilməsi;

4.1.5. Azərbaycan dilçiliyinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

4.1.6. qədim dillərin öyrənilməsi sahəsində dönüş yaradılması və müasir dünya dilçiliyinin nəzəri səviyyəsinə uyğun elmi tədqiqatlar aparılması işinin gücləndirilməsi;

4.1.7. dilçilik sahəsində ixtisaslı kadrların hazırlıq səviyyəsinin yüksəldilməsi;

4.1.8. dünyanın aparıcı mərkəzləri ilə beynəlxalq elmi əməkdaşlığın inkişaf etdirilməsi, dilçiliyin aktuallıq kəsb edən müxtəlif problemlərinə dair birgə tədbirlərin həyata keçirilməsi;

4.1.9. Azərbaycan dilinin dövlət dili kimi inkişafı, tədrisi, lüğət ehtiyatının zənginləşdirilməsi, qrammatik quruluşunun qorunması, söz yaradıcılığı prosesinə nəzarətin gücləndirilməsi və nitq mədəniyyəti sahəsində kompleks tədbirlərin həyata keçirilməsi;

4.1.10. dilin inkişafını və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi;

4.1.11. mətbuat orqanlarında, televiziya və radio kanallarında, internet resurslarında və sosial şəbəkələrdə ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün mexanizmlərin müəyyənləşdirilməsi;

4.1.12. elmi, bədii və publisistik əsərlərin orijinaldan tərcüməsi, eləcə də filmlərin dublyajı sahəsində qüsurların aradan qaldırılması üçün tədbirlərin müəyyənləşdirilməsi;

4.1.13. reklam, afişa və elanlarda ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün yollar müəyyən edilməsi;

4.1.14. Azərbaycan dilini öyrənən xarici vətəndaşlar və xarici dil öyrənmək istəyən azərbaycanlılar üçün tədris vəsaitlərinin daha intensiv hazırlanmasının təmin olunması;

4.1.15. Azərbaycan dilinin düzgün işlənilməsində çevikliyin təmin olunması üçün müvafiq internet resurslarının yaradılması;

4.1.16. Azərbaycan dilində internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması sahəsində işlərin görülməsi.

## 5. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında nəzərdə tutulan tədbirlər Azərbaycan Respublikasının dövlət büdcəsində müvafiq dövlət qurumlarının xərclər smetasında elmi tədqiqatların aparılması üçün nəzərdə tutulmuş vəsaitlər, büdcədənkənar vəsaitlər, qrantlar, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

*"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"na 2013-2020-ci illəri əhatə edən "Dövlət Proqramının icrasına dair Tədbirlər Planı" da daxil edilmişdir.*

## ÇİNİN YENİ PREZİDENTİ – Sİ TSZİNPİN

*Pekində keçirilən Ümumçin Xalq Təmsilçiləri Yığıncağının sessiyasında Si Tszinpinin prezidentliyə namizədliyi bəyənilib*



Si Tszinpin həm də Çin Mərkəzi Hərbi Şurasının də sədri seçilib. Si Tszinpin 2012-ci ilin noyabrından Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi postunu tutur. Si Tszinpin partiyanın baş katibi və Çin prezidenti postunda Xu Tszintaonu əvəzləyib və qarşıdakı 5 ildə ölkəyə rəhbərlik edəcək.

Çinin baş nazir müavini Li Kiçiang ölkənin yeni baş naziri seçilib Li Kiçiang 3 minə yaxın nümayəndənin iştirakı ilə keçirilən Çinin 12-ci Milli Xalq Qurultayında ölkənin yeni baş naziri olaraq təsdiqlənib. Bundan əlavə, qurultayda ali məhkəmənin yeni sədrləri də təyin olunub.

## İSPANİYADA LENİN ADINA QADAĞA

*İspaniyanın Ədliyyə Nazirliyi vətəndaşlıq vəziyyətinin qeydə alınması qurumlarının adqoyma ilə mövqeyini dəstəklədiyini bildirib*



Qurum İspaniyada vətəndaşlara Lenin adının verilməsindən imtina edib. Hakimiyyət isə bu addan imtinanı belə əsaslandırıb: "Tarixi baxımdan Lenin təxəllüsdür. Vətəndaşa Leninin adının verilməsi gələcəkdə soyadla adını qarışıq salınmasına səbəb ola bilər".

Bundan sonra İspaniya vətəndaşlığı qəbul etmiş şəxs öz vətənində "Lenin" adlanırmışsa, onda o, ispaniyalı olduqdan sonra adının dəyişdirməlidir.

## HOLLANDE MƏMURLARIN GƏLİRİNİ BİLMƏK İSTƏYİR

*Fransa prezidenti Fransua Hollande (François Hollande) dövlət məmurlarının gəlirləri və maliyyə vəsaitləri barədə yeni qanunun qəbul ediləcəyinə boyun olub*



Lent.az-ın "BBC"-yə istinadən məlumatına görə, ölkənin keçmiş büdcə naziri Jer Kaüzak xarici ölkələrdə bank hesablarının olmasını etiraf edib.Yerli mətbuat təmsilçiləri hesab edir ki, keçmiş nazir barəsində yaranmış qalmaqal sosialist hökumətini çətin vəziyyətə sala bilər.

Televiziya vasitəsi ilə sonuncu çıxışında prezident J.Kaüzakla bağlı məsələyə də münasibət bildirərək, bir neçə dəfə yumruğunu yelləyib.